www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 may 2024-cü il Cümə № 90 (8463) Qiyməti 60 qəpik

**Xəbər**

## Azərbaycanda 3 yeni hərbi kollec yaradıldı

yazısı səh.2-də

**Gündəm**

### Büdcənin 20 faizi bir ayda xərclənib



**Deputat:** "Daxili borclanma məsələsinə yenidən baxılmalıdır"

yazısı səh.5-də

### Azərbaycan və Tacikistan münasibətlərində yeni mərhələ

yazısı səh.3-də

### Xameneyidən Ermənistan mesajı - Rəisidən sonra...

yazısı səh.9-da

### Paşinyan kilsəni bitirmək anonsu verdi - keşiş Baqratın sonuncu "patronu" isə...

yazısı səh.13-də

### Hərbi çevriliş ənənəsinin kökü qazılır - Ərdoğanın narahatlığının səbəbi

yazısı səh.7-də

### Ermənilərin xəritə hiyləgərliyi - 29.7 min kv/km necə 31 min oldu?

yazısı səh.6-da

### Şadlıq evlərində may durğunluğu - "ənənə" davam edir?

yazısı səh.12-də

### Gürcüstan Avropa Məhkəməsində Saakaşviliyə qalib gəldi

yazısı səh.13-də

### Müəllimlər üçün yeni qadağalar

yazısı səh.4-də

### İşləməyən dəmir pullar dövriyyədən niyə çıxarılmır? - açıqlama

yazısı səh.15-də

### Göyçayda kollecdə 88 min manatın mənimsənilməsi ilə bağlı cinayət işi başlandı

yazısı səh.14-də

# ABŞ KƏŞFİYYATÇISININ MÜƏMMALI İRƏVAN SƏFƏRİ

Devid Koen niyə Bakıya da gəlmədi; MKİ rəhbərinin müavini nümayəndə heyəti ilə birgə Paşinyana təlimatlar verib, eyni vaxtda dövlət katibi Blinken Ermənistana dəstəyin gücləndirilməsindən danışıb - faktlar

yazısı səh.8-də



## Dünyada buğda ucuzlaşır, Azərbaycanda un bahalaşır - səbəb

Bu ilin dörd ayında buğda idxalı 36 faizə qədər azalıb

yazısı səh.4-də



Namiq İslamzadə

### Polkovnik HHQ-nin yeni komandanı haqda nələr danışdı?

yazısı səh.5-də



*Kəmalə Ağazadə:*

### "Erkən nişanlılıq məsələsində də inzibati cəza tətbiqinin zamanıdır"

yazısı səh.15-də



Samir Şərifov

### Nazir büdcənin icrasına dair rəqəmləri açıqladı - MM-də müzakirələr

yazısı səh.10-da

# Ermənilər Qazağın da kəndlərini tərk edərkən tikililəri yandırır



**Ermənistanın Tavuş vilayətinin Kirants (Xeyrimli) kənd sakini sərhədlərin delimitasiyası prosesində həyətyanı sahəsinin Azərbaycanın ərazisinə düşəcək hissəsindəki tikiliyə od vurub.**

APA-nın Ermənistan mediasına istinadən xəbərinə görə, bu hadisəni əks etdirən kadrları internetdə jurnalist Ani Gevorkyan yayıb.

Görüntülərdə polis əməkdaşları və qonşuların yanğını söndürməyə çalışdığı əks olunub.

Qeyd edək ki, 2020-ci ildə ermənilər işğal etdikləri Ağdamı və Kəlbəcəri, 2022-ci ildə isə Laçını tərk edərkən evlərə, inzibati binalara, meşələrə od vurub, dükanları, elektrik yarımstansiyalarını söküb dağıdıblar.

Xatırladaq ki, 2024-cü il mayın 15-də Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sərhəddə Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin və Ermənistan Respublikası Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın doqquzuncu görüşü keçirilib.

Görüşün gedişində komissiyalar onlar tərəfindən qəbul edilmiş 2024-cü il 19 aprel tarixli 8-ci görüşün Protokoluna uyğun olaraq görülmüş işləri müzakirə edib və Sovet İttifaqı çərçivəsində onun süqutu dövründə mövcud olmuş hüquqi cəhətdən əsaslandırılan respublikalararası sərhədə uyğunlaşdırılması məqsədilə bilavasitə Bağanıs Ayrım (AR) - Bağanis (ER), Aşağı Əskipara (AR) - Voskepar (ER), Xeyrımlı (AR) - Kirants (ER) və Qızılhacılı (AR) - Berkaber (ER) yaşayış məntəqələri arasında sərhəd xəttinin hissələrinin SSRİ SQ Baş Qərargahının 1979-cu ildə növbətçilik prosedurunu keçmiş 1976-cı il tarixli topoqrafik xəritəsinə uyğun olaraq yerdəki geodeziya ölçmələri əsasında koordinatların dəqiqləşdirilməsi nəzərə alınmaqla birgə tərtib olunmuş Protokol-təsvirini razılaşdırıblar.

Görüşün yekunu olaraq müvafiq protokol imzalanıb.



## Azərbaycanda 3 yeni hərbi kollec yaradıldı

**Azərbaycan Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində üç yeni hərbi kollec yaradılıb.**

Musavat.com xəbər verir ki, bu barədə baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Bunlar Bakı Hərbi Kolleci, Gəncə Hərbi Kolleci və Naxçıvan Hərbi Kollecidir.

Qərarla Azərbaycan Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki həmin xüsusi təyinatlı təhsil müəssisələrinin nizamnamələri də təsdiq edilib.



## Elektron pul və ödəniş təşkilatlarına lisenziyalar verildi

**Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin 16 may 2024-cü il tarixli qərarı ilə "A-Solutions" və "United Payment" MMC-lərə elektron pul təşkilatı, "Token Azərbaycan" MMC-yə isə ödəniş təşkilatı kimi fəaliyyət göstərmək hüququ verən müddətsiz lisenziyalar təqdim olunub.**

Modern.az bu barədə AMB-yə istinadən xəbər verir.

Məlumata görə, lisenziyalar "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" Qanuna əsasən verilib. Hazırda lisenziya əldə etmək üçün müraciət etmiş digər təşkilatlar qiymətləndirilir.



## Turizmlə bağlı yeni investisiya təşviq mexanizmləri hazırlanır

**Azərbaycanda turizmlə bağlı investisiya təşviq sənədi var. Bu təşviqləri artırmaq üzərində çalışırıq.**

Bu barədə "APA-Economics"ə açıqlamasında Dövlət Turizm Agentliyinin sədr müavini Azadə Hüseynova deyib.

O bildirib ki, bunun üçün ilk növbədə qanunvericilik bazası işlənilməlidir.

"Agentlik bununla bağlı işlər həyata keçirir. Bir neçə təşviq mexanizmimiz var. Yeni əlavələrin də üzərində işlənilir. Bəzi vergi güzəştlərinin də olması üzərində işlər görülür", - deyə A.Hüseynova əlavə edib.

## Pensiyalarla bağlı yenilik - qanun dəyişir

**Əmək pensiyasının avtomatlaşdırılmış qaydada bir növdən başqa növə keçirilməsinə dair prinsip müəyyənləşir.**



Bu, "Əmək pensiyaları haqqında" Qanuna təklif edilən dəyişiklikdə əksini tapıb.

Yeniliyə əsasən, əmək pensiyasının avtomatlaşdırılmış qaydada bir növdən başqa növə keçirilməsi əmək pensiyaçısının daha yüksək məbləğdə hesablanmış digər növ əmək pensiyasına hüququ yarandıqda həyata keçiriləcək.

Həmçinin hərbi qulluqçulara müvafiq təminat xərcliyinin 70 faizi həcmində əmək pensiyasının ödənilməsi təklif olunur.

Bundan başqa, hərbi qulluqçulara əmək pensiyası hərbi xidmət dövründə deyil, hərbi xidmətdən buraxıldığı gündən təyin olunacaq.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, təklif olunan dəyişikliklər arasında hərbi qulluqçuların müvafiq təminat xərcliyinin 10 faiz artırılması da var.

Qeyd edək ki, ölkədə pensiyaçıların 90%-i sosial sigorta əsasli pensiya alır.

❑ **Xezerxeber.az**



## Bakı və Abşeronda yağış yağacaq, külək güclənəcək

**Bakı və Abşeron yarımadasında mayın 24-ü axşamdan 26-sı axşamadək fasilələrlə yağış yağacağı gözlənilir.**

Bu barədə APA-ya Milli Meteorologiya xidmətindən bildirilib.

Qeyd edilib ki, axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağışın intensivləşəcəyi ehtimalı var. 25-i günün birinci yarısında şimal küləyinin arabir 15-20 m/s-dək güclənəcəyi gözlənilir.

Azərbaycanın rayonlarında mayın 24-ü gündüzdən 27-dək bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə (Naxçıvan MR, Qarabağ və Şərqi Zəngəzur, Qazax-Gəncə, Balakən-Şəki, Quba-Qusar, Dağlıq Şirvan, Mərkəzi Aran, Lənkəran-Astara) yağıntıların leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var.

Mayın 25-dən 26-sı gündüzədək şərq küləyinin 15-20 m/s, ayrı-ayrı yerlərdə arabir 23-28 m/s-dək güclənəcəyi gözlənilir.

Çaylarda, o cümlədən Kür, Araz, Qanıx və Qabırrı çaylarında sululuğun artacağı, Böyük və Kiçik Qafqazın, Lənkəran-Astara bölgəsinin ərazisindən axan bəzi çaylardan qısamüddətli daşqın və sel keçəcəyi gözlənilir.



Bəbir Hüseynov

## Əməkdar jurnalist 91 yaşında vəfat etdi

**Azərbaycanın əməkdar jurnalisti, Mətbuat Şurasının Ahıl Jurnalistlər Məclisinin üzvü Bəbir Hüseynov 91 yaşında vəfat edib.**

Bu barədə Azərbaycan Mətbuat Şurasının yaydığı nekrologda bildirilib.

Qeyd edək ki, Hüseynov Bəbir Qüdrət oğlu 1932-ci ildə Ağdam rayonunda doğulub. Bakı Dövlət Universitetinin Tarix fakültəsinin məzunu olmuş Bəbir Hüseynov 1979-cu ildən "Ağdam" qəzetinin redaktoru kimi çalışıb.

**Report**

# Azərbaycan və Tacikistan münasibətlərində yeni mərhələ

İki ölkə arasında Strateji Tərəfdaşlıq Bəyannaməsi imzalandı; Prezident **İlham Əliyev:** “Əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq"



**Azərbaycan Respublikasına dövlət səfərinə gələn Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun mayın 23-də rəsmi qarşılanma mərasimi olub.**

Sonra Prezident İlham Əliyevin Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonla təkbətək, ardınca geniş tərkibdə görüşü keçirilib.

Görüşdə çıxış edən **Prezident İlham Əliyev** “Aydındır ki, dövlət səfərinin xüsusi statusu var və bu, münasibətlərimizin bugünkü yüksək səviyyəsinin təzahürüdür. Həmçinin münasibətlərin inkişafında mühüm mərhələlərdən biri bu gün imzalayacağımız, bununla da münasibətlərimizin səviyyəsini rəsmi şəkildə yüksəldəcəyimiz Strateji Tərəfdaşlıq Bəyannaməsidir. Hərçənd qarşılıqlı münasibətlərin tarixinə və xarakterinə nəzər salsaq, onların çoxdan strateji tərəfdaşlıq xarakteri daşıdığını görərik”, - deyə qeyd edib: “Bizim hədəfimiz bütün istiqamətlər üzrə fəal qarşılıqlı fəaliyyətdir. Bildiyiniz kimi, Sizin səfərinizdən əvvəl biznes-forum olub. Tacikistanın Azərbaycanda Mədəniyyət Günləri keçirilir. Bütün bunlar münasibətlərimizi konkret məzmunla zənginləşdirir. İqtisadi xarakterli bir neçə sənəd imzalanıb. Bu gün nümayəndə heyətlərinin üzvləri ilə müzakirələr çərçivəsində əlaqələrimizə daha çox məzmun əlavə etmək üçün bu gündəliyi ətraflı nəzərdən keçirəcəyik. Çünki ticarət dövriyyəsinin statistik rəqəmləri ilə tanış olduqdan sonra, əlbəttə ki, onların hələlik bizi qane edə biləcəyini deyə bilmərik. Düşünürəm ki, bizim bu gün Sizinlə, sonra nümayəndə heyətlərinin üzvləri ilə artıq razılığa gəldiyimiz və müzakirə edəcəyimiz məsələlər ticarət dövriyyəsinin artmasına kömək edəcək. Təbii ki, bizim müzakirə etdiyimiz mövzulardan biri də Tacikistanın və Azərbaycanın nəqliyyat-logistika infrastrukturunun yeni imkanlarının nəzərə alınması ilə nəqliyyat sektorunda əməkdaşlıqdır. Hesab edirəm ki, bu istiqamətdə səylərimizi birləşdirmək, addımlarımızı daha sıx əlaqələndirmək faydalı olacaq. Çünki Transxəzər nəqliyyat dəhlizi Avropa regionu və Mərkəzi Asiya regionu üçün getdikcə daha çox əhəmiyyət kəsb edir. Azərbaycan isə Avropa ilə Asiyanın qovuşuğunda yerləşən birləşdirici ölkə kimi özünün nəqliyyat infrastrukturu ilə, əlbəttə ki, bu məsələdə mühüm rol oynayır”.

**Prezident Emoməli Rəhmon öz növbəsində “Əminəm ki, bugünkü görüşlərin nəticələri ölkələrimizin əməkdaşlığını yeni inkişaf səviyyəsinə yüksəldəcək” - deyə bildirib:** “Azərbaycan Tacikistanın etibarlı dostu və tərəfdaşıdır. Ölkələrimizi zamanın sınağından çıxmış münasibətlər birləşdirir. Bizim aktual regional və beynəlxalq məsələlərdə mövqelərimiz eynidir. Ölkələrimizin xalqlarının daha da yaxınlaşmasına yönələn humanitar əlaqələr fəal inkişaf edir.

Bu gün biz dövlətlərarası münasibətlərimizi strateji tərəfdaşlıq səviyyəsinə yüksəldən tarixi qərar qəbul edəcəyik. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun əsrlərdən bəri davam edən ənənələrinin ruhuna uyğundur. Bu qərarlar müstəqilliyimizin bütün dövründə qarşılıqlı fəaliyyətimizin irəliləməsində əldə olunan uğurları daha da möhkəmləndirir. Bu baxımdan qeyd etmək istərdim ki, bu prosesin başlanğıcını Azərbaycan xalqının Ümummilli lideri, çox hörmətli Heydər Əlirza oğlu Əliyev qoyub. Əminəm ki, bu gün əldə ediləcək razılaşmalar qardaş xalqlarımızın dərin maraqlarına cavab verəcək və Tacikistan-Azərbaycan münasibətlərinin möhkəm təməlinə çevriləcək".



Bundan sonra prezidentlərin iştirakı ilə Azərbaycan-Tacikistan sənədlərinin imzalanması mərasimi olub.

Prezident İlham Əliyev və Emoməli Rəhmon “Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə”ni imzalayıblar.

Həmçinin hökumət üzvləri müvafiq sənədləri imzalayıblar.

Bunun ardınca Prezident İlham Əliyev və Emoməli Rəhmon mətbuata bəyanatlarla çıxış ediblər.

**Prezident İlham Əliyev “nümayəndə heyətləri üzvlərinin iştirakı ilə geniş tərkibdə, həmçinin təkbətək görüş əsnasında qarşılıqlı fəaliyyətimizlə bağlı məsələlərin geniş spektrini müzakirə etdik, sənaye kooperasiyası, humanitar sahədə əməkdaşlıq üzrə iqtisadi xarakterli bir çox layihənin reallaşdırılmasına dair hökumətimizin üzvlərinə konkret tapşırıqlar verdik”, - deyə bildirib:** “İlin sonunda Emoməli Şaripoviç yenidən ölkəmizə səfər edəcək, biz bir daha bütün məsələləri nəzərdən keçirəcək və verilən tapşırıqların yerinə yetirilməsinə nəzarət edəcəyik. Mən Tacikistan Prezidentini noyabrda keçiriləcək iqlim konfransında iştiraka dəvət etdim. Bu dəvət qəbul olundu. Biz bu beynəlxalq tədbirin keçirilməsinə fəal hazırlaşırıq və Tacikistanın aktiv iştirakını gözləyirik. Əminəm ki, tacik dostlarımız bu konfransın uğurla keçirilməsinə və yaxşı nəticələr əldə edilməsinə böyük töhfə verəcəklər.

Qarşılıqlı fəaliyyətimizin əsasında çoxəsrlik tarix boyu əməkdaşlıq etmiş, dost olmuş, birlikdə qurub-yaratmış xalqlarımızın iradəsi dayanır. Bu gün dövlətlərarası münasibətlərimiz ən yüksək səviyyəyə çatıb.

Biz indicə münasibətlərimizin xarakterini, ruhunu, həmçinin xalqlarımızın iradəsini əks etdirən Strateji Tərəfdaşlıq Bəyannaməsini imzaladıq. Bəyannamə qarşılıqlı fəaliyyətin demək olar bütün sahələrini əhatə edir. Bu sənəddə qarşılıqlı dəstək və konkret nəticələrə diqqət ifadə olunub.

Bu gün iqtisadi əməkdaşlıq məsələlərini ətraflı müzakirə etdik. Strateji Tərəfdaşlıq Bəyannaməsi ilə yanaşı, daha 13 sənəd, ümumilikdə 14 sənəd imzalanıb ki, onlardan bəziləri burada, bəziləri isə əvvəllər imzalanıb. Bu, münasibətlərimizin müqavilə-hüquq bazasını xeyli möhkəmləndirir. Tacikistan Prezidentinin səfəri ərəfəsində biznes-forum keçirildi, bu forumda da sənədlər və qarşılıqlı anlaşma memorandumları imzalandı və bu barədə bu gün bizə məlumat verildi. Hesab edirəm ki, bu, bizə qarşılıqlı ticarətin həcmini xeyli artırmağa imkan verəcək".

**Dövlət başçısı habelə deyib ki, sənaye kooperasiyası ilə bağlı məsələləri ətraflı müzakirə ediblər:** “Əminəm ki, haqqında danışdığımız məsələlər, hökumət üzvlərinə verilən tapşırıqlar ən qısa zamanda icra olunacaq. Nəqliyyat sektoru da diqqət mərkəzimizdə olub. Biz Orta dəhlizi və onun bir hissəsi olan Transxəzər Nəqliyyat Dəhlizini Tacikistandan yükgöndərənlər üçün daha cəlbedici etmək məqsədilə logistika əlaqələrinə dair məsələləri ətraflı nəzərdən keçirdik. Mən həmkarıma məlumat verdim ki, Azərbaycan öz ərazisində bütün iri nəqliyyat və logistika layihələrini praktiki olaraq başa çatdırıb və bu gün müxtəlif istiqamətlərdə - Şərqdən Qərbə və əks istiqamətdə, Şimaldan Cənuba və əks istiqamətdə böyük həcmdə yükləri qəbul etməyə hazırdır.

Bu gün, həmçinin geosiyasi dəyişikliklər, dünyadakı vəziyyət, regionlarımızdakı şəraitlə bağlı məsələləri müzakirə etdik. Biz təhlükəsizlik tədbirlərinin gücləndirilməsi və bu sahədə əməkdaşlığın inkişafı, təhsil, mədəniyyət və kənd təsərrüfatı ilə bağlı məsələləri ətraflı nəzərdən keçirdik. Başqa sözlə, hətta ölkələrimizin nümayəndə heyətlərinin tərkibi də geniş gündəmdən xəbər verir. Amma əlbəttə, əsas olan münasibətlərimizdəki səmimiyyət, Tacikistanla Azərbaycan arasındakı münasibətlərin dostluq, qardaşlıq xarakteri, təbii ki, dövlət başçılarının şəxsi təmaslarıdır".

**Sonra Tacikistan Prezidenti bəyanatla çıxış edib: “...Hörmətli İlham Heydər oğlu qeyd etdiyi kimi, bu gün biz dövlətlərarası münasibətlərimizin səviyyəsini strateji tərəfdaşlığa yüksəldən tarixi qərar qəbul etmişik. Bu qərar şübhəsiz ki, əməkdaşlığımızın tarixində yeni səhifə açır. Öz növbəmdə müntəzəm siyasi dialoqun bütün səviyyələrdə aparılmasının vacibliyini vurğulamaq istərdim...**

Danışıqlar zamanı biz aqrar sahəyə də xüsusi diqqət yetirdik. Biz turizm sahəsində əməkdaşlığın inkişafına dair Yol Xəritəsinin imzalanmasını alqışladıq. Bununla bağlı müvafiq qurumlara paytaxtlarımız arasında birbaşa aviareyslərin bərpası üçün tədbirlərin görülməsi tapşırıldı.

Nəqliyyat və kommunikasiya sahələrinə xüsusi diqqət yetirildi... Danışıqlarımızda mədəni-humanitar əməkdaşlıq məsələsi də mühüm yer tutdu... Biz dostlarımıza təklif etdik ki, gələn il Tacikistanda Azərbaycan Mədəniyyət Günlərini keçirək və bu tədbir çərçivəsində Tacikistan və Azərbaycan xalqları arasında Dostluq festivalı təşkil edək.

Danışıqlar zamanı təhlükəsizliklə bağlı risklər və təhdidlər müzakirə edildi. Öz növbəmdə onu qeyd etmək istərdim ki, beynəlxalq aləmdə mövcud vəziyyət mürəkkəb və gərgin olaraq qalmaqdadır. Fürsətdən istifadə edərək vurğulamaq istəyirəm ki, Tacikistan bütün ziddiyyətlərin və münaqişələrin sülh yolu ilə həllinin tərəfdarıdır. Biz Azərbaycanla təhlükəsizlik sahəsində səmərəli əməkdaşlığın səviyyəsindən və məzmunundan məmnunluğumuzu bildiririk. Bu baxımdan, terrorizmə və ekstremizmə, radikalizmin təzahürlərinə, transmilli mütəşəkkil cinayətkarlığa, o cümlədən kibercinayətkarlığa və narkotik qaçaqmalçılığına qarşı mübarizəyə mühüm yer ayırırıq. Bu xətt üzrə xüsusi xidmət orqanlarının və ixtisaslaşdırılmış digər idarələrin fəaliyyətinin əlaqələndirilməsinin gücləndirilməsini zəruri hesab edirik.

Beynəlxalq və regional təşkilatlar çərçivəsində ölkələrimizin təşəbbüslərinin qarşılıqlı şəkildə dəstəklənməsi təcrübəsinin davam etdirilməsinin tərəfdarı olduğumuzu bildirdik. Azərbaycanın bu il BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının növbəti sessiyasını (COP29) keçirməsi ilə bağlı qərarını alqışlayırıq. Vurğulamaq istərdim ki, biz Tacikistan-Azərbaycan münasibətlərinin inkişaf perspektivlərinə nikbin baxırıq".

# Müəllimlər üçün yeni qadağalar



**Müəllimlərə sosial media hesablarında iş yerinin nüfuzunu aşağı salan səs və videolar paylaşmaq, eləcə də təhsil müəssisəsinin ərazisində siqaret çəkmək qadağan edilib.**

Musavat.com xəbər verir ki, bunu təhsil eksperti Elçin Əfəndi bildirib.

Qeyd edək ki, Bakı şəhəri 25, 81 və 203 nömrəli tam orta məktəblərdə aparılan yoxlamalar zamanı bir sıra nöqsanlar aşkarlanıb və sözügedən təhsil müəssisələrinin direktorları vəzifələrindən azad edilib. Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən Elm və Təhsil Nazirliyinin rəsmi qəzetinə bildirilib ki, yoxlamalar zamanı 25 nömrəli tam orta məktəbdə şagird davamiyyətinin zəif olduğu, dərnəklərin fəaliyyətinin düzgün təşkil edilmədiyi və məktəb sənədlərinin qaydalara uyğun tərtib olunmadığı müəyyən edilib. Eyni zamanda texniki işçinin əməkhaqqından digər işçilərə ödəniş verildiyi aşkarlanıb.

81 nömrəli tam orta məktəbdə dərsə davamiyyətin zəif olması, dərnəklərin tədris edilmədiyi, zəruri dərs saatlarının bölünmədiyi, fərdi təhsilin düzgün aparılmadığı məlum olub. Məktəbdə eyni zamanda kiçik xidmətedici işçilərin öz vəzifələrini icra etmədikləri, təsərrüfat işləri üzrə direktor müavininin uzun müddət onun tabeliyində gözətçi işlədiyi aşkar edilib.

203 nömrəli tam orta məktəbdə aparılan yoxlamalara gəlincə, müəyyən edilib ki, dərsdənkənar məşğələlər düzgün təşkil edilməyib, məktəb sənədləri qaydasında deyil. Həmçinin təsərrüfat işləri üzrə direktor müavininin həyat yoldaşının onun tabeçiliyində ocaqçı vəzifəsində çalışdığı, texniki işçilərin gündəlik davamiyyətinin olmadığı və təhsil müəssisəsində repetitorluq fəaliyyətinin olduğu müəyyənləşdirilib.

❑ **AFAQ, Musavat.com**

# Dünyada buğda ucuzlaşır, Azərbaycanda un bahalaşır - səbəb

## Bu ilin dörd ayında buğda idxalı 36 faizə qədər azalıb

**Azərbaycanda unun qiymətində artım müşahidə olunur. "Xəzər TV"nin məlumatına görə, əgər ötən ay 50 kiloqramlıq unun kisəsi 25,05 manata satılıbsa, may ayında bu qiymət 27,35 manat olub. Bu faktı məhsulun satıcıları da təsdiqləyir. Əsas səbəb kimi isə məhsul qıtlığı göstərilir.**

Regionlardan aldığımız məlumatlarda unun qiymətində bahalaşma olduğu təsdiqini tapır. Bəzi regionlarda bir kisədə 2 manat, bəzilərində 1-1,5 manat bahalaşma olduğu bildirilir. Aran regionunda un çatışmazlığı olmadığını bildirsələr də, Qərb bölgəsində topdansatışdan az məhsul buraxıldığını deyirlər.

Qeyd edək ki, Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlər bu ilin birinci rübündə ölkədə un və çörək istehsalının azaldığından xəbər verir. Belə ki, 2024-cü ilin ilk rübündə Azərbaycanda 262.1 min ton çörək istehsal edilib. Bu da əvvəlki dövrlə müqayisədə 8.2 faiz azdır. Azalma həmçinin buğda ununda da müşahidə edilir. Məsələn, 2023-cü ilin birinci rübündə 391.07 min ton buğda unu istehsal edildiyi halda, bu, 2024-cü ildə azalaraq 365.38 min tona düşüb. Bu da 6.5 faiz azalma deməkdir. Unlu qənnadı məhsullarının istehsalı illik 0.2 faiz azalaraq 18.1 min tona düşüb. Birinci rübdə yalnız makaron məmulatlarının istehsalında artım qeydə alınıb - 1643 ton təşkil etməklə 14 faiz.

Maraqlıdır ki, Azərbaycanda un və çörək istehsalında azalma 3-cü ildir qeydə alınır. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2022-ci ildə ölkədə un istehlakı 1 milyon 540 min ton təşkil edib. Bunun 479916 tonu bilavasitə əhalinin şəxsi istehlakı, 959111 tonu ərzaq məhsullarının istehsalına gedib. İl ərzində ölkədə 1 365 163 ton un istehsal olunub, daha 106 597 tonu isə idxal edilib. Çörək istehsalı isə 1 245,9 min ton təşkil edib. 2023-cü ildə unun istehsal həcmi illik müqayisədə 2.6 faiz azalaraq 1 milyon 328,75 min tona, çörək isə 3.1 faiz azalaraq 1 milyon 207.15 min tona düşüb.

Bu ilin ötən dövründə Azərbaycana buğda idxalında ciddi azalma var. Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2023-cü ilin ilk dörd ayında ölkəyə xaricdən əsasən Rusiyadan olmaqla 409.038 min ton (124 milyon dollarlıq ) buğda idxal edilibsə, cari ildə bu rəqəm 266 min 609 tona (59.697milyon dollar) düşüb. Buğdanın bir tonu 2023-cü ilin birinci rübündə Azərbaycana 303 dollara başa gəldiyi halda, cari ildə bu rəqəm 224 dollara qədər azalıb. Maraqlıdır ki, idxalçılar belə əlverişli qiymət şərtlərindən istifadə edərək buğda alışını artırmaqdansa, azaldırlar.



Məlumat üçün bildirək ki, Azərbaycanda hazırda 25-dən çox un istehsalçısı var. Bu istehsalçılar vəziyyətlərindən kifayət qədər narahatdırlar. Onların nümayəndələri bildirirlər ki, hökumət 2021-ci ildə dünya bazarında buğdanın qiyməti bahalaşanda un istehsalçılarına qısa müddət dəstək verib: "İlk vaxtlar mexanizm sadə idi: istehsal olunan 1 ton una görə istehsalçıya 35 manat dövlət dəstəyi verilirdi. Sonra hökumət mexanizmi o qədər mürəkkəbləşdirdi, o qədər əlavə şərtlər müəyyənləşdirdi ki, istehsalçıların xeylisi dəstəkdən yararlana bilmədi. İndi buğda ucuzlaşıb deyirlər, un, çörək niyə elə ucuzlaşmır? Buğda ucuzlaşsa da, heç də bütün istehsalçıların onu özünün alıb gətirmək imkanı yoxdur. Buna görə də bir çoxları idxal edən şirkətlərdən buğdanı əvvəlkindən cüzi fərqlənən qiymətə alır".

Azərbaycanın ərzaqlıq buğdaya olan illik tələbatı 1,8-2 milyon ton təşkil edir. Bu da ondan irəli gəlir ki, Azərbaycan əhalisi dünyada ən çox un və çörək istehlak edən ölkələr sırasındadır - ildə adambaşına 123 kq. Yeri gəlmişkən, dünyada adambaşına ən az çörək istehlakı Skandinaviya ölkələrindədir - ildə 32-45 kq. Rusiyada bu göstərici 97 kq, Bolqarıstanda 96 kq, Fransa və Almaniyada 54 kq, İtaliyada 52 kq təşkil edir. Türkiyədə əhali adambaşına ildə 124 kq çörək yeyir.

Çörək əsas qida məhsulu olduğuna görə un və çörək bazarındakı dəyişiklik əhalinin büdcəsinə ən çox təsir edən amilə çevrilib. Belə şəraitdə idxalın azalması, yerli istehsalın artmaması qiymət bahalaşmasına gətirib çıxaran əsas faktor ola bilər.

Rəsmi statistikaya əsasən, 2023-cü ildə ölkədə 1 milyon 833,8 min ton buğda istehsal edilib, məhsuldarlıq 33,8 sentner olub. Bu il üçün Azərbaycanda həm payızlıq, həm də yazlıq buğda əkinlərinin sahəsində azalma diqqəti cəlb edir. Dövlət Statistika Komitəsinin məlumatına görə, ölkədə 598,3 min hektar sahədə payızlıq buğda əkilib ki, bu da əvvəlki illə müqayisədə 9,9 faiz azdır. Bundan əlavə, 2023-cü ildə yazlıq buğda əkinləri 4 799,2 ha olubsa, bu il cəmi 584,3 ha sahədə belə əkin aparılıb.

Aydın məsələdir ki, əhalisi çörək yeməyə meylli olan ölkə üçün ərzaqlıq buğda təminatında böyük ölçüdə idxaldan asılılıq ciddi təhdidlər formalaşdırır. Yerli buğda istehsalı həcmini bu təhdidləri neytrallaşdıracaq həddə çatdırmaq uzun illərdir əsas prioritetlər sırasında olsa da, bu, hələ də əlçatmaz olaraq qalır. Bunun əsas səbəbi isə buğda becərilməsində, xüsusilə suvarma sahəsində müasir texnologiyaların çox məhdud tətbiqidir. 2023-cü ildə Azərbaycanda müasir suvarma sistemi olan sahələr cəmi 98,5 min hektar təşkil edib. Bu, 1,5 milyon hektarlıq ümumi əkin sahələrinə nisbətdə çox cüzi bir göstəricidir. Hesablamalara görə, 150 min ha sahədə müasir suvarma sistemi və texnologiyaların tətbiq olunması ilə buğda yetişdirməklə, Azərbaycanda ərzaqlıq buğda təminatını təmin ərzaq təhlükəsizliyini təmin edəcək səviyyəyə çatdırmaq mümkündür.

Azərbaycan ərazisi qlobal iqlim dəyişikliyinin təsirinə ən çox məruz qaldığı ölkələrdən biridir. Rəsmi məlumata əsasən 2020-ci ildə 68.6 min ha, 2021-ci ildə 42.2 min ha, 2022-ci ildə 101.4 min ha və 2023-cü ildə 178.3 min ha sahədə əkinlər quraqlıq səbəbindən tamamilə məhv olub. Bu isə müasir və qənaətli suvarma sistemlərinin tətbiqini son dərəcə aktuallaşdırır.

Dövlət müasir və qənaətli suvarma sistemlərinin tətbiqini genişləndirmək üçün bir sıra stimullaşdırıcı addımlar atıb. Məsələn, Prezident İlham Əliyevin 2022-ci ilin iyulunda imzaladığı fərmanla pivot suvarma sisteminin tətbiqi ilə keyfiyyətli ərzaqlıq buğda istehsal edən fermerlərə hər tona görə stimullaşdırıcı subsidiya müəyyən edilib. Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Subsidiya Şurasının qərarı ilə 2024-cü il üzrə bu subsidiyanın həcmi 100 manat olaraq müəyyənləşdirilib.

Lakin proseslərin gedişi göstərir ki, buğda təminatında təhlükəsizliyin təmin olunması ən yaxşı halda 3-4 ilə mümkün olacaq. Azərbaycan üçün buğda təminatında çətinlikləri azaldan əsas amil iki əsas buğda ixracatçısı olan ölkə - Rusiya və Qazaxıstanla qonşu olmağıdır. ABŞ Kənd Təsərrüfatı Nazirliyinin yaydığı proqnoza əsasən 2024-2025-ci il mövsümündə Rusiyada buğda istehsalı 88 milyon ton, ixracı isə 52 milyon ton təşkil edəcək. Rusiyanın ən yaxın rəqibi olan Aİ-nin buğda ixracı ilə bağlı proqnoz isə 34 milyon tondur (ABŞ Kənd Təsərrüfatı Nazirliyi öz proqnozlarında Krım və Ukraynadan ilhaq edilən digər ərazilərə dair məlumatları nəzərə almır).

Nazirliyə görə, yeni kənd təsərrüfatı ilində qlobal buğda istehsalı 798,19 milyon ton, yemlik taxıl 1 milyard 512,62 milyon ton, qarğıdalı 1 milyard 219,93 milyon ton səviyyəsində qiymətləndirilir.

Buğda istehsalının artması onun dünya bazar qiymətinin əlverişli həddə qalmasını təmin edir. Dünya Bankının əmtəə bazarları ilə bağlı hesabatına əsasən, 2024-cü ildə 1 ton buğdanın qiyməti 290 dollar təşkil edəcək, bu da öncəki proqnoz göstəricisindən 45 dollar azdır. DB-nin proqnozuna görə, 2025-ci ildə 1 ton buğdanın qiyməti 285 dollar səviyyəsində olacaq ki, bu da öncə verilən proqnoz göstəricidən 35 dollar azdır. Beləliklə, Bankın proqnozuna əsasən, 2024-cü ildə buğdanın qiyməti illik müqayisədə 14,8 faiz, 2025-ci ildə isə 1,7 faiz azalacaq.

Lakin bu proqnozların özünü doğrultması hazırda ciddi sual altındadır. Belə ki, Azərbaycanın əsas idxal bazarı olan Rusiyada may ayında müşahidə olunan kəskin soyuqların buğda istehsalında ciddi azalmaya gətirib çıxaracağı gözlənilir. Rusiya Kənd Təsərrüfatı Bazarının Öyrənilməsi İnstitutu (ICAR) bir ayda üçüncü dəfə buğda istehsalına dair proqnozunu aşağı salıb. ICAR-ın baş direktoru Dmitri Rılkonun İnterfaks-a verdiyi məlumata görə, yeni proqnoz əvvəlkindən 2,5 milyon ton azdır - 86 milyon tona qarşı 83,5 milyon ton.

Buğdanın ixrac potensialı üzrə proqnoz isə 47 milyon tondan 45 milyon tona endirilib. ICAR indi ümumi taxıl yığımını 135 milyon tona qarşı 132 milyon ton, ixrac potensialını isə 59,5 milyon tona qarşı 57 milyon ton səviyyəsində qiymətləndirir. Rılkonun sözlərinə görə, proqnozlar Rusiyada bütün may ayı boyu müşahidı olunan əlverişsiz hava şəraiti ilə əlaqədar azaldılır.

Rusiya Kənd Təsərrüfatı Nazirliyi də bu il üçün taxıl yığımı proqnozuna düzəlişləri istisna etmir - hələlik proqnoz 132 milyon ton təşkil edir. Nazirlikdən verilən məlumata görə, bir sıra mərkəzi rayonlarda şaxta ilə əlaqədar 900 min hektar sahədə əkinlərin təkrar aparılması zərurəti yaranıb.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

# Büdcənin 20 faizi bir ayda xərclənib

## Deputat: "Daxili borclanma məsələsinə yenidən baxılmalıdır"

**Azərbaycan hökuməti 2023-cü ildə dövlət büdcəsinin icrasına dair hesabatı Milli Məclisə təqdim edib. Parlamentdə təqdim olunan sənəddən aydın olur ki, ötən il dövlət büdcəsinin gəlirləri 35 milyard 236 milyon 394,3 min manat təşkil edib.**

Büdcənin 36 624,8 milyon manat məbləğində təsdiq olunmuş xərcləri 99,5 faiz və ya 36 457,9 milyon manat məbləğində icra olunub. Sənədə əsasən, bu, 2022-ci illə müqayisədə 4 393,3 milyon manat və ya 13,7 faiz çoxdur. Strukturuna görə 2023-cü il dövlət büdcəsi xərclərinin 20268,1 milyon manatı və ya 55,6 faizi cari xərclərə (2022-ci illə müqayisədə 2529,1 milyon manat və ya 14,3 faiz çox), 15 007,3 milyon manatı və ya 41,2 faizii əsaslı xərclərə (2022-ci illə müqayisədə 2 473,7 milyon manat və ya 19,7 faiz çox), 1182,5 milyon manatı və ya 3,2 faizi dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclərə (2022-ci illə müqayisədə 609,5 milyon manat və ya 34,0 faiz az) yönəldilib.

2022-ci illə müqayisədə dövlət büdcəsinin xərclərinin tərkibində cari xərclərin xüsusi çəkisi 0,3 faiz-bənd və əsaslı xərclərin xüsusi çəkisi 2,1 faiz-bənd artıb, dövlət borcuna xidmətlə bağlı xərclərin xüsusi çəkisi isə 2,4 faiz-bənd azalıb.

**Hesablama Palatasının büdcənin icrasına dair rəyinə görə, 2023-cü ildə dövlət büdcəsi xərcləri 6 ay proqnozdan artıq, 6 ay isə proqnozdan az icra olunub. Palatanın rəyində qeyd olunur ki, proqnozla müqayisədə ən yüksək icra səviyyəsi 144,7 faiz təşkil etməklə dekabr ayında qeydə alınıb. Belə ki, dekabr ayında 7 milyard 302,8 milyon manat büdcə vəsaiti xərclənib ki, bu da 2023-cü ildə icra olunmuş cəmi dövlət büdcəsi xərclərinin 20 faizinə bərabərdir:** "Ötən il ilk 11 ay üzrə orta aylıq icra göstəricisinə (2 650,5 milyon manat) nəzər salsaq, dekabr ayında icra edilmiş xərclərin müvafiq göstəricidən 2,8 dəfə çox olduğunu deyə bilərik. Dekabr ayında yüksək icraya digər amillərlə yanaşı, il ərzində büdcəyə yenidən baxılaraq xərclərin artırılması və bunun ilin ikinci yarısında həyata keçirilməsi də təsir edir. Belə ki, dövlət büdcəsi xərclərinin rüblük bölgüsü yenidən aparılmaqla, 3-4-cü rüblər üzrə xərclər 3 271,5 milyon manat və ya 6,3 faiz artırılıb".

**Palata bildirir ki, xərclərin ilin sonunda icra edilməsi büdcə vəsaitlərinin akkreditiv hesablara yönəldilməsinə, bank hesablarında istifadəsiz saxlanılmasına, bununla da ilin sonunda qalıq vəsaitlərin vahid xəzinə hesabına geri qaytarılmamasına şərait yaradır**: "Qeyd olunan hal Hesablama Palatası tərəfindən həyata keçirilən bəzi kənar dövlət maliyyə nəzarəti tədbirləri zamanı da aşkar edilmişdir. Qurumlar tərəfindən Hesablama Palatasına 2023-cü il büdcə vəsaitlərindən istifadə ilə bağlı təqdim edilmiş məlumatlar da bu faktı təsdiqləmişdir. Belə ki, seçmə qurumlarla əhatə edilmiş təhlillər 2023-cü il üzrə ayrılmış vəsaitlərdən təxminən 300 milyon manata yaxın vəsaitin akkreditiv hesablara yönəldildiyini, 1 milyard manatdan çox vəsaitin isə bank hesablarında istifadəsiz qaldığını göstərib".




Ötən il büdcənin dövlət əsaslı vəsait qoyuluşu xərclərində keçid layihələrin payı əhəmiyyətli üstünlük təşkil edib. Belə ki, dövlət əsaslı vəsait qoyuluşu üçün nəzərdə tutulan vəsaitlərin bölgüsünə daxil edilmiş 490 layihədən 257-si keçid, 233-ü isə yeni layihə olub. Keçid layihələrin icrasına 1 milyard 969,9 milyon manat (74,1 faiz), yeni layihələrə isə 690,5 milyon manat (26 faiz) vəsait yönəldilib. Büdcə zərfi ilə müqayisədə keçid layihələrin sayı 49, məbləği 724,5 milyon manat, yeni layihələrin sayı 230, məbləği isə 577,8 milyon manat artıb.

2023-cü ildə Azərbaycanın işğaldan azad edilmiş ərazilərində ümumi dəyəri 1,1 milyard manat olan 35 layihənin icrası başa çatdırılıb. Ümumi dəyəri 26,4 milyard manat olan 202 layihə isə keçid mərhələsindədir. Onların icrasının tamamlanması üçün 13 milyard manat lazımdır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin dünən keçirilən iclasında "2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsi zamanı **Hesablama Palatasının sədri Vüqar Gülməmmədov** bildirib ki, 2023-də Dövlət Vergi Xidmətinin xətti ilə daxilolmalar üzrə borclar 2,8 milyard manat təşkil edib. Onun sözlərinə görə, ötən il 1,9 milyard manat həcmində artıq vergi ödəmələri qeydə alınıb.

Dövlət Vergi Xidmətinin rəis müavini İlkin Vəliyev isə bildirib ki, ötən il vergi borclarında cəmi 421 milyon manat artım baş verib. Onun sözlərinə görə, borcların artım trendi hesablamaların artım trendinə uyğun gedir: "2023-cü ildə bizim hesabladığımız vergi 16 milyard manatdan bir az çox olub. Yəni burada 16 milyard manatdan hesabladığımız vergidir, 421 milyon manat isə qalıq borcdur. Qalıq borc 3 faizdən də azdır. Əsas borclar məhkəmə ilə mübahisələndirilən borclardır və burda son qərarı məhkəmə verir. Əsas suallardan biri də odur ki, biz nəyi borc kimi tanıyırıq? Bu məsələni də müzakirə etmək olar".

**Komitə iclasında millət vəkili Vahid Əhmədov daxili borclanmanın kəskin artmasını mənfi hal kimi qeyd edib. Onun fikrincə, Maliyyə Nazirliyi daxili borclanma məsələsinə yenidən baxmalıdır:** "Bu qədər daxili borclanmaya getmək olmaz. Manatın məzənnəsi, pul kütləsi ilə bağlı hələ ki problem yoxdur. Ancaq nə vaxtsa problem olsa, onda daxili dövlət borclanması ölkəyə çətinlik yaradacaq. Hesab edirəm ki, bu məsələyə yenidən baxılmalıdır".

Qeyd edək ki, ötən il daxili borclanma ilə bağlı limit 1,8 milyard manat müəyyən edilib və bunun 1,7 milyard manatı istifadə olunub.

**Maliyyə naziri Samir Şərifov V.Əhmədovun qeydinə cavab olaraq daxili borclanmanın artma səbəblərini açıqlayıb:** "Vaxtilə Beynəlxalq Bankın sağlamlaşdırılması istiqamətində "Aqrarkredit" Bank Olmayan Kredit Təşkilatı tərəfindən Beynəlxalq Bankın toksik borcları alınırdı. Bunun üçün dövlət tərəfindən vəsait ayrılmışdı. Həm də bu toksik aktivlərin sağlamlaşdırılması üçün dövlət zəmanəti ilə istiqrazlar verilmişdi. Bu aktivləri balans qiyməti ilə alırdıq, lakin onun satışı real bazar qiymətindən aşağı idi və nəticədə zərər əldə edilirdi. "Aqrarkredit" bir vaxta qədər bunu idarə edirdi. İndi müəyyənləşdi ki, bu qurum bu borcları idarə etmək iqtidarında deyil. Nəticə etibarı ilə bu borcu dövlət borcu kimi qiymətləndirdik. Bu, dövlət borcumuzun artmasına təsir etdi".

Büdcənin icrasına dair hesabatdan aydın olur ki, 2023-cü ildə Azərbaycanda ərzaq məhsullarının yerli istehsalının sənayenin xammalına və əhalinin yeyinti məhsullarına olan tələbatın ödənilməsi üçün 6 strateji hədəf müəyyənləşdirilib. Bu hədəflərin icrası məqsədilə 7 proqramın, 17 subproqramın və 26 tədbirin həyata keçirilməsinə 947,6 milyon manat vəsait yönəldilib.

❑ **İqtisadiyyat şöbəsi, "Yeni Müsavat"**


Namiq İslamzadə

# Polkovnik HHQ-nin yeni komandanı haqda nələr danışdı?

## Rövşən Məhərrəmov: "Uzun illər hərbi bazanın komandiri olub, pillə-pillə, təcrübə toplaya-toplaya..."

**Xəbər verildiyi kimi, Azərbaycan Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov az öncə yaş həddi ilə əlaqədar xidmətdən azad edilib. General-mayor Namiq İslamzadə Hərbi Hava Qüvvələrinin yeni komandanı təyin olunub. O, şəxsi heyətə təqdim edilib.**

Bəllidir ki, Namiq İslamzadə bu təyinatadək Hərbi Hava Qüvvələri komandanının müavini vəzifəsində xidmət edib. 9 dekabr 2020-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə ona Vətən Müharibəsi Qəhrəmanı adı verilib. O da məlumdur ki, müasir dövrdə uğurlu döyüş əməliyyatı xeyli dərəcədə hərbi hava qüvvələrinin peşəkarlığından asılıdır. 44 günlük Vətən savaşı da bunu təsdiqlədi.

"Azərbaycanda Milli Ordunun sözün əsl mənasında milliləşməsi prosesi, demək olar, başa çatmaq üzrədir. Uzun illər SSRİ/Rusiyada təhsil alan generallar orduda hakimi-mütləq idilər. Azərbaycanın 90-cı illərin ortalarından başlayaraq Türkiyə Ali Hərbi Məktəblərində oxumağa göndərdiyi məzunlar indi artıq orduda üst vəzifələrə gəlirlər. Bunun daha bir örnəyini gördük - general-mayor Namiq İslamzadə Hərbi Hava Qüvvələrinə (HHQ) yeni komandan təyin edildi. Cənab İslamzadə 1992-ci ilin sentyabr ayında təhsilini davam etdirmək üçün Türkiyə Respublikasının Ali Hərbi Təyyarəçilik Məktəbinə göndərilib və 1996-cı ildə həmin məktəbdən təyyarəçi ixtisası üzrə məzun olub"-bunu ekspert Natiq Cəfərli qeyd edib. Cəfərli vurğulayıb ki, Azərbaycan Ordusu Türkiyə (NATO) modelinə keçir, Türkiyə ilə hərbi və təhlükəsizlik məsələləri ilə bağlı inteqrasiya prosesi yüksələn xətlə davam edir.

**Hərbi ekspert, polkovnik Rövşən Məhərrəmov** "Yeni Müsavat"a bildirdi ki, Namiq İslamzadə kimi peşəkar, vətənpərvər, təcrübəli hərbçinin Hərbi Hava Qüvvələrinə komandan təyin edilməsi çox müsbət addımdır. Bu təyinat Hərbi Hava Qüvvələrinin daha da inkişafında öz təsirini göstərəcək: "Mən Namiq İslamzadəni yaxşı tanıyıram, çox yüksək səviyyəli zabitdir, mükəmməl səviyyəli pilotdur. Hərbi paradlarda pilatajlar göstərən bütün təyyarəçilərimizi o hazırlayıb. Yeni ştata görə Hərbi Hava Qüvvələrinə hava hücumundan müdafiə qoşunları və hərbi hava qüvvələri daxildir. Əvvəllər ştatda ümumi hərbi hava qüvvələri komandanı hava hücumundan müdafiə üzrə mütəxəssis olmalı idi. İndi təzə ştata görə hərbi hava qüvvələrinin komandanı pilotlardan təyin olunmalıdır. General Namiq İslamzadə həm peşəkar pilotdur, həm də uzun müddətdir fəaliyyətdədir, təşkilatçılıq qabiliyyətinə malikdir, uzun illər hərbi bazanın komandiri olub, pillə-pillə, təcrübə toplaya-toplaya yuxarı vəzifələrə təyin edilib, müharibə zamanı çox böyük sücaətlər göstərib və buna görə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülüb. Bir sözlə, general Namiq İslamzadə çox uğurlu kadrdır. Adı heç zaman qanunsuzluqlarda hallanmayıb. Azərbaycanın hava hücumundan müdafiə və hərbi hava qüvvələri uğurlu inkişaf yolu keçib və son zamanlar bu sahəyə diqqət daha da artırılıb. 44 günlük Vətən müharibəsində hərbi hava qüvvələrimiz, hava hücumundan müdafiə qüvvələrimiz dünyanı heyrətə gətirən performans göstərdilər".

**Ekspertin sözlərinə görə, Azərbaycan Ordusunun Türkiyə ordusu sisteminə keçidi prosesi Hərbi Hava Qüvvələrini də təbii ki, əhatə edib. Namiq İslamzadə bu prosesin uğurla getməsində çox böyük zəhməti, rolu olan yüksək vəzifəli zabitlərimizdəndir:** "Şəxsi keyfiyyəti, mütəxəssis kimi ən yüksək bilik və təcrübəsi, təşkilatçılıq bacarığı olan zabitin Hərbi Hava Qüvvələrinə komandan təyin edilməsi bu sahənin gələcəyi barədə daha da nikbin olmağımıza əsaslar yaradıb".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**



## Rusiya XİN: “Yeni Kaledoniyada baş verənlər Fransanın müstəmləkə-imperiya təfəkkürünün davamıdır”

**Yeni Kaledoniyada baş verənlər Qərb liberal demokratiyasının saysız-hesabsız cinayətlərinin təzahürlərindən biridir.**

APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova bildirib.

O, Yeni Kaledoniyadakı vəziyyəti Rusiya XİN-in mayın 18-də şərh etdiyini xatırladıb: “Bəli, biz daxili işlərə qarışmırıq, onu şərh etmirik. Lakin çoxlu sualları nəzərə alaraq və ən başlıcası Qərbin demokratiya, azadlıq kimi tezislərlə manipulyasiyasının sistemliyini nəzərə alaraq bu suallara cavab veririk. Yeni Kaledoniyadakı faciəvi hadisələr köhnə ziddiyyətlərin və onun köklü əhalisinin vəziyyətlərindən narazılıqlarının artması nəticəsində ortaya çıxıb. Biz Yeni Kaledoniyadakı ictimai-siyasi böhrana onun və ümumilikdə dünyada dekolonizasiya prosesinin başa çatmamasının nəticəsi kimi baxırıq. Bu, bir daha onu təsdiq edir ki, Fransanın keçmiş müstəmləkələrinə münasibətdə siyasəti dalana dirənib”.

Zaxarova Parisin bu siyasətini Fransanın müstəmləkə-imperiya təfəkkürünün davamı adlandırıb. “Biz Fransanın rəsmi hakimiyyətini etiraz edənlərə əsassız güc tətbiqindən çəkinməyə çağırırıq. Biz Parisi Yeni Kaledoniyanın köklü əhalisinin hüquq və azadlıqlarının təmin edilməsinə riayət etməyə çağırırıq. Parisi digər ölkələrə əsassız olaraq qoyduğu yüksək tələblərə müvafiq olmağa çağırırıq”, - deyə Rusiya XİN sözçüsü vurğulayıb.

# Ermənilərin xəritə hiyləgərliyi - 29.7 min kv/km necə 31 min oldu?

## Musa Qasımlı: “Onlar bilməlidirlər ki, 1918-ci ildə Ermənistan adlı bir dövlət Azərbaycan torpaqlarında yaradılanda ərazisi təxminən 9 min kvadrat kilometr idi”

**Ermənistandakı revanşist qüvvələrin yeni peyda olan başçısı, keşiş Baqrat Qalstanyan Nikol Paşinyanın dediklərinin əksinə, yeni sensasion iddia ilə çıxış edib. Qalstanyan Azərbaycanla sərhədlərin 1976-cı il xəritəsinə əsasən delimitasiyasına şübhə ilə yanaşaraq deyib ki, Ermənistanla Azərbaycan arasında demarkasiya və delimitasiya prosesi 1929-cu ilin xəritələri üzrə gedir. “Və yaxın vaxtlarda biz də Milli Təhlükəsizlik Xidmətinin arxivindən indiki yox, əvvəlki arayışı təqdim edəcəyik. Mənzərə son dərəcə aydındır. Biz prosesi dayandırmasaq, daha doğrusu, səbəbini aradan qaldırmasaq, bu proses sona çatacaq”, - Baqrat bildirib.**

Qalstanyan və onun kimi iddialar irəli sürən revanşistlərə rəsmi İrəvanın reaksiyası özünü gecikdirməyib. Ermənistan baş naziri Nikol Paşinyan mayın 22-də parlamentdə Azərbaycanla sərhədin demarkasiyası məsələsindən danışıb. "AzadlıqRadiosu"nun erməni xidməti yazır ki, o, deputatlardan birinin sərhədin delimitasiyasının hansı xəritələr əsasında aparıldığına dair sualına cavab olaraq deyib ki, söhbət SSRİ-nin dağılması anında olan de-yure sərhədlərdən gedir və heç bir yeni xəritələr tərtib olunmur: “1988-ci ilin demarkasiya işlərindən çox danışılır. Birincisi, bir daha vurğulayıram: burada nə vaxtsa və hansısa bir şəkildə görülən iş təsdiqlənir. Bu təsvirə görə həmin iş de-yure qüvvəyə minməyib, çünki hüquqi prosedurdan keçməyib. Yəni hüquqi gücü yoxdur. İkincisi, bu işin əsasında heç bir xəritə yaradılmayıb”.

**Paşinyan parlamentdə-kilərə SSRİ Baş Qərargahının 1969-cu ilin xəritələrinə əsaslanan 1976-cı ilə aid xəritələrini göstərib:** “Çox təfərrüatlı bir iş görərək biz xəritələrdə Ermənistan sərhədlərinin bütün perimetrlərini təsvir-ləmişik. Biz Bağanis, Voskepar, Kirants, Berkaber kəndlərində SSRİ-nin dağılması zamanında de jure hüquqi gücü olan xəritələr əsasında demarkasiya aparmışıq”.

Baş nazir əlavə edib ki, bu təsvir xəritələri tam 19 səhifədən ibarətdir.

Paşinyan bir daha bəyan edib ki, Ermənistanın ərazisi 29 min 743 kvadrat kilometrdir. Baş nazir vurğulayıb ki, “tarixi Ermənistan” ideyasının daşıyıcıları bu məntiqi başa düşməlidirlər.



### Revanşistlərin ərazi iddialarına Paşinyandan “Onlar istəyirlər ki, İrəvanın mərkəzində kafedə oturub, Qars barədə xülyalara dalsınlar və beləliklə də İrəvanın özünü itirsinlər” cavabı

O, çıxışında müxalifətə işarə edərək “bəzilərinin gözləntilərindən” bəhs edib və deyib ki, belə mövqe birbaşa “qeyri-dövlətə, qeyri-suverenliyə, qeyri-vətəndaşlığa aparır”: “Onlar istəyirlər ki, İrəvanın mərkəzində kafedə oturub, Qars barədə xülyalara dalsınlar və beləliklə də İrəvanın özünü itirsinlər. Baxın, real və tarixi Ermənistan arasında olan fərq budur. Onlar istəyirlər ki, real Qafanda oturan adamlar Zəngilan və ya onların sözləri ilə desək, Sanasar haqqında xəyallara qapılıb real Qafanı itirsinlər. Bu, konseptual müzakirədir. Real Ermənistan gələcəkdir. Biz deyəndə ki, gələcək var, gələcək elə budur”.

**Paşinyan sözünə davam edərək deyib:** “Real Ermənistan konkretdir. Biz onun sərhədlərini bilirik və səhərdən axşamadək kiməsə ağız açıb "təhlükəsizliyimizi qoruyun" deməkdənsə, onun təhlükəsizliyini təmin edirik. Öz legitim mövqeyimizdə dururuq".

Nikol Paşinyan sonuncu fikirləri ilə əslində revanşistlərin Ermənistan dövlətinin varlığına son qoya biləcək qədər təhlükəli, yanlış yolda, iddialarda olduğunu Ermənistan xalqına açıq şəkildə çatdırmış olub. Baş nazir xalqına iki seçimi təqdim edir. Ya “xam xəyallar”la yaşayıb əllərində olanı da itirmək, ya da realist davranıb əllərində olanı saxlamaq.

İrəvan Dövlət Universitetinin Xəritəçəkmə və geomorfologiya kafedrasının müdiri Artak Piloyan isə deyib ki, 1926-cı ilin xəritəsinə görə, Azərbaycanla sərhədlərin müəyyənləşdirilməsi Ermənistan üçün daha sərfəli olardı. Onun sözlərinə görə, guya həmin dövrün xəritəsinə əsasən Ermənistan SSR-in ərazisi 31 min kvadrat kilometr olub. Piloyan sərsəm fikirlərinə əlavə olaraq bildirib ki, bura “Qırmızı Kürdüstan” ərazisi də daxildir.

Öz növbəsində Ermənistan xarici işlər nazirinin müavini Mnatsakan Səfəryan mayın 22-də iddia edib ki, 1976-cı ilin xəritələri sərhədin bütün hissələrdə delimitasiya üçün əsas olacaq. Onun sözlərinə görə, hazırda delimitasiyanın növbəti mərhələsinin hansı ərazidə aparılacağı məlum deyil.

Qeyd edək ki, sərhədin digər hissələrinin hansı xəritələrlə çəkiləcəyini Azərbaycan müəyyən edir. Yəni rəsmi Bakı yalnız 1976-cı il xəritəsinə istinad edilməyəcəyini bildirib.

Bəs bu nə xəritələrdir belə (1929 və 1926)? Ermənilər nəyə arxayındır, əgər SSRİ tərkibində ərazisi “böyüyən” yeganə müttəfiq respublika Ermənistan olubsa? SSRİ dağılan zaman məgər Ermənistanın ərazisi 29.7 min kv/km deyildi?

Keşiş Baqrat və onun kimi revanşistlərin xəritə və ərazi iddialarına tutarlı cavabı elə Ermənistanın baş naziri Paşinyan “Onlar istəyirlər ki, İrəvanın mərkəzində kafedə oturub, Qars barədə xülyalara dalsınlar və beləliklə də İrəvanın özünü itirsinlər” deməklə verib.

Azərbaycan və Ermənistan arasında bütün sərhədlərin müəyyənləşdirilməsi zamanı 1923-cü ildən sonrakı xəritələrdən istifadə İrəvana sərf edir. Çünki bu müddətdə Azərbaycanın bir sıra əraziləri, xüsusilə Zəngəzurun 9 kəndi, Laçın və Kəlbəcərin müəyyən əraziləri Ermənistanın nüfuz dairəsinə keçib. O cümlədən Qazax, Gədəbəyin bəzi əraziləri, Göyçə. Bu səbəbdən də ermənilər çalışırlar ki, 1923-cü ildən sonrakı xəritələri əsas götürsünlər. Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan da təxminən iki il öncə indi keşiş Baqratın iddialarına oxşar iddialar irəli sürürdü. Lakin Azərbaycan o cür iddiaların əsassız olduğunu qeyd edərək təbii ki, qəbul etmədi. Bu gün artıq nə Paşinyan, nə də Qriqoryan belə fikirlər səsləndirmirlər. İndi isə keşiş Baqrat və revanşist müxalifət 1926 və 1929-cu il xəritələrini əsas götürməyin guya düzgün olacağını iddia edirlər. Onlar iddia edirlər ki, Sovet İttifaqında sərhədlərin demarkasiyası 1925-26-cı illərdə başlayıb, 1929-cu ildə başa çatıb və sonradan hazırlanmış sovet xəritələri o dövrün xəritələrinə əsaslanır. Halbu ki bundan əvvəl 1918, 1920-ci ilin xəritəsi var. Bu hərbi xəritə Azərbaycanda da, Ermənistanda da mövcuddur. Amma Ermənistan mütəxəssisləri məhz 1923-cü ildən sonrakı xəritələri gündəmə gətirirlər. Niyə? Çünki delimitasiya zamanı 1920-ci illərdə çəkilən xəritə əsas götürülsə, Azərbaycanın ərazisi bir neçə min kvadrat kilometrə qədər artacaq. Bu səbəbdən də ermənilər deyirlər ki, 1923-cü ildən sonrakı dövrün xəritələri ilə razıyıq. Çünki yaxşı bilirlər ki, o torpaqlar Ermənistana sonradan - SSRİ zamanında verilib.

**Professor, millət vəkili Musa Qasımlı “Yeni Müsavat”a bildirdi ki, Ermənistanda müxtəlif illərə aid olan xəritələrə istinad edilməsi cəhdləri sərhədlərin delimitasiyası, demarkasiyası və sülh sazişinin imzalanmasında maraqlı olmayan qüvvələrin olduğunu bir daha göstərir:** “Əgər indiyədək bu proses başlayıb və gedirsə, deməli, bəlli metodologiya qəbul edilib. İş də onun əsasında aparılır. Ermənistanın keşiş Baqrat və Səfəryan kimi şəxsləri bilməlidirlər ki, 1918-ci ildə Ermənistan adlı bir dövlət Azərbaycan torpaqlarında yaradılanda ərazisi təxminən 9 min kvadrat kilometr idi. Bu gün isə Ermənistanın ərazisi 28 min kvadrat kilometrdən bir qədər çoxdur. Onların ərazi artımı nəyin hesabına olub? Ermənistana müxtəlif illərdə verilən Azərbaycan torpaqları hesabına. Ermənilərə müxtəlif illərdə verilən torpaqların sənədləri var və ermənilərin söylədikləri heç bir əsasa dayanmır”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

**Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan ölkənin 1980-ci il hərbi çevrilişindən sonra qüvvədə olan konstitusiyanı əvəz etmək üçün sivil konstitusiyasının hazırlanması və qəbul edilməsinin zəruriliyini bəyan edib. Bu barədə o, Nazirlər Kabinetinin iclasından sonra xalqa müraciətində deyib.**

# Hərbi çevriliş ənənəsinin kökü qazılır - Ərdoğanın narahatlığının səbəbi

## Ekspert: "Türkiyənin inkişafını, güclənməsini istəməyən qüvvələr yetərincədir, ona görə də..."

Onun sözlərinə görə, mövcud konstitusiya ilə Türkiyə irəli gedə bilməz: "Yeni əsas qanunun qəbulu ilə türk demokratiyası çevriliş ənənəsinə son qoymalıdır. Yeni əsrdə Türkiyənin 85 milyonluq əhalisi üçün yeni sivil konstitusiya idealının həyata keçirilməsinin zəruriliyinə inanıram. Gələcək nəsillər liberal konstitusiya ilə idarə olunmağa layiqdir".

Qeyd edək ki, Ərdoğan daha əvvəl iki dəfə konstitusiyaya dəyişikliklərlə bağlı məsələləri xalqın təsdiqinə təqdim edib. 2017-ci ildə keçirilən referendumdan sonra ölkədə parlament idarəetmə forması prezident üsul-idarəsi ilə əvəz olundu, lakin bu dəyişikliklər fonunda yeni konstitusiya qəbul edilmədi. Ötən ilin may ayında yenidən prezident seçildikdən sonra Ərdoğan yeni konstitusiyanın qəbulunu administrasiyasının əsas vəzifələrindən biri adlandırmışdı.

Bu arada qardaş ölkədə 34 il aradan sonra "Səfərbərlik və hərbi vəziyyət nizamnaməsi" ləğv edilib. Bununla bağlı Ərdoğan fərman imzalayıb. Sənədə əsasən, "Səfərbərlik və hərbi vəziyyət nizamnaməsi" əvəzinə "Səfərbərlik və hərbi vəziyyət əsasnaməsi"nin tətbiqinə başlanılıb. Əsasnamə "dövlətin bütün qüvvə və resurslarının hərbi vəziyyətə və ya müharibəni labüd edə biləcək gərginlik və böhran dövrlərinə uyğun olaraq sürətlə hərəkətə keçirmək üçün hazırlıqların yerinə yetirilməsini" tələb edir.

Nizamnamənin əsasnaməyə dəyişdirilməsi sənədin ən əvvəl yeni dövrlə ayaqlaşması ilə əlaqələndirilir. Bununla belə, əsasnamə prezident səlahiyyətinin artırılması ilə də seçilir: başlıca dəyişikliklərdən biri səfərbərlik elanı yetkisinin Nazirlər Şurasından prezidentə ötürülməsidir. Beləliklə, "müharibə tələb edən vəziyyət yarandıqda, üsyan baş verdikdə, vətənə və ya respublikaya qarşı güclü və təsirli qiyam baş verdikdə, ölkənin və millətin bölünməzliyinə daxildən və xaricdən təhlükə yaradan davranışlar baş verdikdə", Prezident ümumi və ya qismən səfərbərlik elan edilməsi haqqında qərar qəbul edə bilər.

Qeyd edək ki, 2018-ci ildə Nazirlər Şurası ləğv edildikdə prezident, vitse-prezident və nazirlərin cəmi "Prezident kabineti" adlandırılmağa başlasa da, Nazirlər Kabineti konstitusiyaya daxil edilmiş bir qurum deyil.

Son dəyişikliklər təsadüfmü? Ərdoğan nədən narahatdır?

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev bu addımların sırf Türkiyənin xeyrinə olduğunu söylədi:** "Rəcəb Tayyib Ərdoğan yetərincə müdrik liderdir və öz ölkəsinin inkişafı, Türkiyənin işıqlı gələcəyi üçün var gücü ilə çalışan insandır. Ona görə də Türkiyə Prezidentinin bütün addımlarında yalnız və yalnız müsbət, pozitiv çalarlar axtarmaq lazımdır. Konkret olaraq konstitusiya dəyişiklikləri haqda deyilənlərə gəlincə isə düşünürəm ki, bu, çox təbii bir prosesin anonsudur. Eyni zamanda konstitusiya dəyişikliyi demək olar, bütün dövlətlərin həyatında baş verən hadisədir. Ya da belə deyək: dövrün tələbləri, mövcud şərtlər yeniləndikcə mütləq şəkildə konstitusiyaya da əlavələrin edilməsi və ana qanunun həmin tələblərə, şərtlərə uyğunlaşdırılması zərurəti yaranır. Bu isə bayaq da söylədiyim kimi, çox normal bir prosesdir, gedişatdır.

Üstəlik, qeyd edim ki, "Səfərbərlik və hərbi vəziyyət nizamnaməsi"nin 34 illik aradan sonra ləğv edilməsi və onun əvəzinə "Səfərbərlik və hərbi vəziyyət əsasnaməsi"nin tətbiqi də son dərəcə düzgün, gərəkli və əsl zamanında verilmiş bir qərardır. Çünki Türkiyə elə bir dövlətdir ki, onun inkişafını, güclənməsini, yüksəlişini istəməyən qüvvələr yetərincədir. Bu sıraya Qərbdəki məlum şəbəkələr də daxildir, Avropada qərarlaşan bəzi Türk düşmənləri də, FETÖ-çu yaramazlar da, digərləri də... Və belə olan halda heç şübhəsiz ki, ehtiyat tədbirlərini görmək, milli maraqlara zərbə vura biləcək bütün daxili və xarici müdaxilələrin, təhdidlərin, potensial təhlükələrin qarşısını vaxtında almaq lazımdır. Əlqərəz, nə baş verirsə, hansı qərarlar verilirsə, birmənalı şəkildə Türkiyənin xeyrinədir və qardaş dövlətin milli maraqları naminədir".

**AĞ Partiya başqanının I müavini, siyasi şərhçi Əhəd Məmmədli bildirdi ki, Ərdoğan nə edirsə, Türkiyə üçün edir:** "Hər başdan bir səs çıxanda dövlət idarəolunmaz vəziyyətə gəlib çıxır və bundan da xarici qüvvələr istifadə edir. Türkiyə bu cür xoşagəlməz vəziyyətlə cümhuriyyət tarixində bir neçə dəfə rastlaşıb. Hərbi xuntaların dövlət çevrilişləri, koalision iqtidarların böhranı parlament üsul-idarəsinin natamamlığından xəbər verirdi. Ərdoğan Türkiyəyə güclü prezident hakimiyyətini gətirdi və bunu daha da bərkitmək niyyətindədir. Təbii ki, Ərdoğan bunu təkcə öz şəxsi naminə etmir. Aydın məsələdir ki, Ərdoğan da hər kəs kimi əbədi deyil və onun hökmranlığına elə də çox qalmayıb. Çünki yaş da istər-istəməz təəssüf ki, öz sözünü deyir. Ərdoğan Türkiyəyə ABŞ, Britaniya və yaxud İrandakı kimi dayanıqlı, sabit, vahid siyasi sistem gətirmək istəyir. Ərdoğanın istədiyinə oxşar siyasi sistem Türkiyə tarixində 700 il Osmanlı adında yer alıb. Sultanlar dəyişib, amma vahid siyasi-ideoloji sistem qalıb. Bu da Osmanlı dövlətinin 700 il uzun ömründən xəbər verir. Ərdoğan prezidentlər dəyişsə də, Türkiyəyə Osmanlıdakı kimi oxşar vahid siyasi ideoloji sistem gətirmək istəyir. Yeganə doğru yol da budur. Ona görə də Rəcəb Tayyib Ərdoğanın Türkiyə dövlətçiliyinin daha da böyüməsi yönündə növbəti addımını çox düzgün və vaxtında verilmiş qərar hesab edirəm. Və bir də unutmayaq ki, sabit, güclü, dostları və düşmənlərinə yönəlik addımları hesablanan Türkiyə Azərbaycana da lazımdır".

**AMİP sədrinin beynəlxalq əlaqələr üzrə müavini Elşən Mustafayev qardaş ölkənin belə məsələlərdə çox həssas olmasına diqqət çəkdi:** "Türkiyədə 1980-ci il çevrilişindən sonra hakimiyyətdə olan hərbçilərin qəbul etdiyi konstitusiyanın indiyədək dəyişdirilməməsi başa düşülən deyildi. Doğrudur, zaman-zaman konstitusiyanın müəyyən müddəalarına dəyişiklik olunmuşdu. Amma bütövlükdə hərbçilərin hazırladığı konstitusiyanın ruhu hələ də yerindədir. Hesab edirəm ki, o zaman qəbul olunmuş konstitusiya zamana uyğun olaraq kifayət qədər mükəmməl və Türkiyə dövlətçiliyini qoruyan bir sənəd olub. Amma Türkiyədə baş verən siyasi proseslərdən, münasibətlərdən dolayı uzun illərdir ki, fərqli stiuasiya yaşanmaqdadır. Adətən konstitusiyalar iki səbəbdən dəyişdirilir. Fikrimcə, birincisi, zamanın tələbinə uyğun olaraq ölkələrin idarə etməsində yaranan boşluqları doldurmaq, təhlükəsizlik məqsədilə qanunvericiliyi mühafizə altına almaq və bu səpkili digər problemləri önləmək, ikincisi isə siyasi hakimiyyəti qorumaq, idarəetməni rahatlaşdırmaq və hakimiyyətdə olan qüvvəni mühafizə etmək, kənar təsirləri minimuma endirmək məqsədilə konstitusiya dəyişdirilir. 1980-ci ildən sonra dəyişdirilən konstitusiyanın təxminən ikinci səbəbə görə qəbul edildiyini demək olar. Hazırda vəziyyət o haldadır ki, Türkiyəyə qarşı yarıleqal bir birlik formalaşıb və bu birliyin əsas məqsədi Türkiyəni regionda söz sahibi olmaqdan çıxarıb, tapşırıqlar icra edən bir dövlətə çevirməkdir. Bu kimi təhdidlərin qarşısını almaq üçün nüfuzlu liderin olması çox azdır, güclü və dövləti hər tərəfdən qoruyan konstitusiyanın olması mütləqdir. Ümid edirəm ki, Türkiyədə baş verəcək konstitusiya dəyişikliyi hakim partiyanın maraqlarını təmin etməyə yox, ölkənin bütün sahələrində mühafizə və müdafiə edəcək bir alətə çevriləcək. Prosesə təkan veriləndən sonra yeni sənədin layihəsinin müzakirələri çox şeyi bildirəcək. Bəziləri deyir ki, hazırkı dəyişiklik AKP hakimiyyətinin ömrünü uzatmağa xidmət edəcək. Amma inanmıram ki, həmin konkret siyasi maraqlara xidmət edən, bir partiyanın maraqlarının təminatçısına çevriləcək konstitusiya layihəsi müzakirəyə çıxarılsın. Çünki sonunda həmin sənəd xalqın səsverməsi ilə qəbul olunacaq. Türkiyədə isə xalq bu məsələlərdə çox həssasdır".



**Cavanşir ABBASLI, "Yeni Müsavat"**



## Norveç Rusiyadan gələn turistlərin ölkəyə girişini qadağan edəcək

**Norveç turizm məqsədilə gələn Rusiya vətəndaşları üçün əlavə giriş məhdudiyyətləri tətbiq edir. Musavat.com xarici mediaya istinadla xəbər verir ki, bu barədə krallıq hökumətinin saytında yerləşdirilən məlumatda deyilir.**

Yeni qaydalar mayın 29-dan qüvvəyə minir.

Sənəddə bildirilir ki, Norveç polisi təlimatın müddəalarının şamil olunduğu vətəndaşların ölkəyə girişindən imtina edə bilər. Xüsusilə Norveçə turizm və digər qeyri-vacib məqsədlər üçün gələn rusların sərhədi keçərkən krallığa girişi qadağan ediləcək.

Qaydaların sərtləşdirilməsi başqa ölkədən Şengen vizası almış şəxslərə də aiddir.

Eyni zamanda Norveç krallıqda yaşayan yaxın qohumlarını görmək istəyən, habelə Norveçə və ya digər Şengen ölkələrinə işləmək və ya təhsil almaq üçün gələn Rusiya vətəndaşlarını öz ərazisinə buraxa bilər.

Əvvəllər Rusiya Şengen vizalarına müraciət etmək hüququndan məhrum olunan ölkələr sırasına daxil olub.

**Musavat.com**



# Vətəndaş müharibəsinin qabaqcadan hiss edilməsi

Zamin HACI
zaminhaci@gmail.com

## Yaxud qaynadılmış lobya ilə yumşaq kompozisiya

**12-ci imam, "Şaurma" restoranının müdiri Aqil müəllimə 40 nəfəri aldatdığı üçün 12 il 6 ay həbs cəzası verilmişdi. Nəticədə çox mistik haqq-hesab yaranırdı: 12, 40, 6 rəqəmləri işin mahiyyətinə uyğun gəlirdi.**

Lakin imam apelyasiya şikayəti verdi, təzəlikcə məhkəmə onun cəzasını 3 ay azaltmışdır. İndi 12 il 3 ay edir. Bu da harfdan baxsan dini əhvalatdır. Ardıcıl düzəndə sanki "Bir, iki, üç" deyirsən. Şübhəsiz, burfda hikmət vardır. Yaxşı olar Ali Məhkəmə də 3 ay azaltsın, 12-yə 12 olsun.

Dünən mən ekranda Məşhəddə İran prezidentini basdırmağa gedən adamların katafalk arabasına dəsmal, yaylıq və sairə atdığına baxdım. Maşın getdikcə kütlə yaylıqları atırdı, maşının üstündəki adamlar isə həmin parçaları prezidentin tabutuna sürtüb təzədən camaata tullayırdı. Yəqin o parçalar müqəddəsləşibdir, bir azdan onları tikə-tikə doğrayıb xalqa verəcəklər. Qaynadıb suyunu içənlər şəfa tapacaqdır. İrandan həmişə bizə belə postmodern müalicə üsulları gəlmişdir. Qədimdə sərhəd açıq olanda seyidlər gətirərdi. Bəzən ölülərimizi diriləndirdilər. Allah Şura hökumətinə qənim olsun, necə ki, oldu. Aramıza sərhəd çəkmişdilər, o cür nemətlərdən 70 il məhrum olmuşduq. Yenə şükür, bir ara xeyli adam İrana gedib burnunu düzəltdirdi.

Mövzudan uzaqlaşmayaq. Əgər fikir verdinizsə, mən yazının girişində Aqil müəllimi necə var, elə də adlandırdım. Yoxsa bəziləri onu "özünü 12-ci imam kimi təqdim edən" deyə damğalayır. Haradan bilirsiniz ki, imam deyil? Bunu heç kim əminliklə deyə bilməz. Bunlar hamısı əsrar aləmidir. Vaxtilə bütün imamları da elə sizin kimilər öldürmüşdü. Peyğəmbəri qəbul etmirdilər. Bəzilərini hətta çarmıxa çəkiblər. İndi başına and içirlər.

Burada bir haşiyə də çıxım ki, dövlət rəhbərliyi qızışmaqda olan "qadın və kişilər arasında birinci vətən müharibəmizə" hansısa münasibət bildirməlidir. Atəşkəs imzalanmalıdır. Yoxsa bu gedişlə qan su yerinə axacaq. Mənim mövqeyim oxucuları maraqlandırırsa, indidən bəyan edirəm: mən qadınlar tərəfdən döyüşəcəyəm. Bu, öz cinsimə qarşı satqınlıq, xəyanət deyil. Sadəcə, maraqlarım belə tələb edir. Mənə qadınlar maraqlıdır. Mən qadınları sevirəm. Hansı kişiyə kişilər maraqlıdırsa, buyursun, onların tərəfində döyüşsün.

Ümumiyyətlə, buna əmin ola bilərsiniz, hansı kişi qadın düşmənidirsə, qadınları aşağılayırsa, onun qadınlarla problemi var. Həm cinsi pozğunluq yaşayır, həm sosial. Elm əsasında yazıram. Qadına pis gözlə baxan, qadını hər hansı səbəbdən (istər tarixi, istər dini) aşağılayan, alçaldan kişi ya impotentdir, ya da ictimai impotentdir. Bunun başqa adı yoxdur.

Lakin mümkündür ki, bizdə vətəndaş savaşının başqa növləri də yaransın. Məsələn, müəllimlər və valideynlər arasında qırğın düşmək ehtimalı vardır. Hər gün bu sferadan acaib xəbərlər gəlir. Hətta bugünlərdə bir xəbər gördüm, çaşıb belə oxudum: "Direktor dərs vaxtı şagirdin başını kəsdi". Gözüm kəlləmə çıxdı, təkrar baxdım, sən demə, "saçını kəsdi" yazılıbmış.

Vəziyyət o qədər gərginləşib ki, artıq müəllimlərə ərazidə siqaret çəkmək, diskoteka açmaq, rok oxutmaq qadağan edildi. Məncə, bu kimi hallar xalqda təhsilə, məktəbə marağı azaldacaqdır. Ta orada nə edəcəklər? Siqaret çəkmə, rəqs eləmə, meyxana demə, uşağın saçını qırxma, gözünü çıxartma, ağzını cırma, qulağını dartma... Belə, darıxdırıcı yer...

Bizim vaxtımızda müəllim uşağa siqaret aldırırdı, Allah Qorbaçovun evini yıxsın. Şagirdləri də odunla döyürdülər. Saç yolmaq adi hal idi.

Eh, deyirəm, keçən günləri qaytarsaydılar, gələn günləri qurban verərdik...

**P.S.** *Yazının başlığı və alt başlığı Salvador Dalinin ünlü rəsminin adıdır, hər hansı hoqqabazlıq deyildir.*

---

**ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəhbərinin müavini Devid Koenin başçılıq etdiyi nümayəndə heyəti mayın 21-də İrəvanda səfərdə olub. "Yeni Müsavat" bildirir ki, Koen öncə Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanla görüşüb.**



# ABŞ kəşfiyyatçısının müəmmalı İrəvan səfəri

## Devid Koen niyə Bakıya da gəlmədi; MKİ rəhbərinin müavini nümayəndə heyəti ilə birgə Paşinyana təlimatlar verib, eyni vaxtda dövlət katibi Blinken Ermənistana dəstəyin gücləndirilməsindən danışıb - faktlar

Nümayəndə heyətini Ermənistanın baş naziri Nikol Paşinyan da qəbul edib. Ermənistan Nazirlər Kabinetinin yaydığı məlumata görə, görüşdə Ermənistan-ABŞ ikitərəfli və beynəlxalq gündəliyə aid məsələlər müzakirə edilib. Eyni vaxtda ABŞ dövlət katibi Entoni Blinken deyib ki, Ermənistana dəstəyimizi və bu ölkə ilə əməkdaşlığımızı gücləndirmək üçün daha nə edə biləcəyimizi müəyyən etmək məqsədilə İrəvandan gələn bir sıra sorğuları nəzərdən keçiririk. Bununla yanaşı, o, apreldə həm Ermənistanın baş naziri Nikol Paşinyan, həm də Avropa Komissiyasının Prezidenti Ursula von der Leyenlə görüşünü xatırladıb: "Avropa İttifaqı rəsmiləri ilə bu istiqamətdə aparılan məsləhətləşmələr Ermənistan hökumətinə hansı istiqamətlər üzrə dəstəyin verilməli olduğunu müəyyənləşdirmək məqsədi daşıyıb. Biz belə qərara gəlmişik ki, həyata keçiriləcək tədbirlər bütün istiqamətləri əhatə etməlidir", - deyə A.Blinken fikirlərini tamamlayıb. O həmçinin əlavə edib ki, ölkəsi Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin imzalanacağına inanır.

Bu səfər və ABŞ xarici işlər nazirinin açıqlaması göstərir ki, Vaşinqton İrəvanda mövqelərini gücləndirməyə çalışır. ABŞ Rusiyanın forpostu olmuş ölkədə strateji olaraq möhkəmlənir və Paşinyan administrasiyasına da bu məqsədlə güclü dəstək verilir. Bəs niyə məhz indi? Devid Koen İrəvana konkret nə üçün gəlmişdi? Səfərin İran prezidentinin qəzada həlak olmasından bir gün sonra reallaşması təsadüfdürmü? Ümumiyyətlə, ABŞ 6 ildir ki, Paşinyan hakimiyyətini müdafiə edir. Avropa İttifaqı da eynilə dəstəyi davam etdirir. Xarici işlər naziri Ararat Mirzoyan mayın 22-də parlamentdə deyib ki, Ermənistanla Avropa İttifaqı arasındakı münasibətlər hərtərəfli birgə tərəfdaşlıq haqqında razılaşmadan daha geniş sahələri əhatə edir. O bildirib ki, tərəflər bu münasibətlərin daha da dərinləşməsi üçün möhkəm siyasi iradəyə malikdir: "Biz bu fəaliyyəti birgə tərəfdaşlıq müqaviləsi əsasında həyata keçiririk. İndi isə avropalı tərəfdaşlarımızla əlaqələrimizin bu sənədin (SEPA) hüdudlarından kənar səviyyədə genişləndirilməsini müzakirə edirik". Avropa İttifaqının (Aİ) xarici siyasət və təhlükəsizlik məsələləri üzrə ali nümayəndəsi Jozep Borrel də bildirmişdi ki, Aİ Ermənistanın suverenliyinə, demokratiya və möhkəmliyinə güclü sadiqliyini nümayiş etdirmək üçün amerikalı dostları ilə səyləri birləşdirməyə çalışır.

**"Yeni Müsavat"a danışan siyasi ekspert Azad Məsiyevin sözlərinə görə, Paşinyan Birləşmiş Ştatlar tərəfindən hakimiyyətə gətirilib və Amerika onun üzərindən Cənubi Qafqazda möhkəmlənmək istəyir:** "44 günlük müharibə ABŞ-ın mövqelərini zəiflətmişdi, Paşinyan da çətin vəziyyətdə idi və böyük siyasi laylar tərpənmişdi. Bu baxımdan Paşinyanın əlini gücləndirmək lazımdır. Çünki Ermənistan hakimiyyətinə Rusiyadan təzyiqlər gəlir. Eyni təzyiqlər Azərbaycandan da var və bu da 8 kəndin hamısının qaytarılması ilə bağlıdır. Belə vəziyyətdə Paşinyanın böyük dəstəyə ehtiyacı hiss olunur. Ona görə MKİ-nin rəhbər müavini İrəvana gəlməklə yeni təlimatları verib". **Onun fikrincə, bu təlimatlardan sonra Paşinyan addım atmağa başlayacaq:** "Bu tapşırıqlar Rusiyanın hərbi bazalarını çıxarmaqla bağlı ola bilər. Eləcə də Ermənistanın Azərbaycanla konfrontasiyaya getməsi istənilə bilər. Çünki Qərb Bakıya təzyiq etməyə çalışır və sərhəddə bir gərginlik olmasında maraqlıdır. Həmçinin siyasi təxribatlara da əl atıla bilər".

**Vətəndaş Həmrəyliyi Partiyası Mərkəzi İcra Aparatının rəhbəri Samir Əsədli hesab edir ki, MKİ rəhbərinin müavini Ermənistana təsadüfən səfər etməyib:** "Nəzərə almaq lazımdır ki, ABŞ-ın İraqdan sonra ikinci ən böyük diplomatik korpusu İrəvanda yerləşir. Hətta səfirliyin işçilərinin sayının iki mindən çox olduğu deyilir. İstisna deyil ki, onların əksəriyyəti kəşfiyyatçılardır. Yəni Mərkəzi Kəşfiyyat İdarəsi səfirlik adı ilə regiona yerləşib. Bu informasiya Rusiyada da var. Onlar bilirlər ki, Paşinyanın məşvərət-məsləhətçiləri arasında səfirlikdəkilərin olması da gözləniləndir. Bu mənada Devid Koenin səfəri planlaşdırılmış addımdır. Bununla həm Ermənistanın Rusiyanın orbitindən uzaqlaşdırıldığı və ABŞ tərəfindən himayə olunduğu mesajı verilir, həm də bəzi "ev tapşırıqları" verilir".

**S.Əsədlinin sözlərinə görə, Rusiyanın Ermənistanda təsirlərinin azaldılması prosesi gedir və Blinkenin bəyanatı da həmin səfərlə sinxronluq təşkil edir:** "Rusiyanı Ermənistandan tam çıxarmaq çətin olacaq. Lakin bu istiqamətdə addımlar sürətləndirilir. Aprelin 5-də keçirilən Brüssel görüşü, ayrılan maliyyə, Avropa İnkişaf və Yenidənqurma Bankının 500 milyonluq yardım vədi göstərir ki, Qərb İrəvanı öz peykinə yaxınlaşdırır. Təsadüfi deyil ki, xarici işlər naziri Mirzoyan mayın 22-də Avropa İttifaqı ilə əlaqələrin dərinləşdirilməsinin zəruriliyindən danışıb. Habelə Kopenhagendə keçirilən "demokratiya sammiti"ndə Paşinyan Avropa Birliyinə üzvlük arzusunu dilə gətirmişdi, hətta bu il qoşulmaq istədiklərini bildirmişdi. Bir sözlə, səfərlər, bəyanatlar, görüşlər məhz Ermənistanın Rusiyadan uzaqlaşdırılması strategiyasıdır".

**Emil SALAMOĞLU,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

# Xameneyidən Ermənistan mesajı - Rəisidən sonra...

**“İranın Ermənistanla əlaqələri genişləndirmək siyasəti davam edəcək”. Bunu İranın ali dini lideri Əli Xameneyi mayın 22-də İbrahim Rəisinin vida mərasimində iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü zamanı deyib.**

“Mərhum prezidentimizin Ermənistanın sərhəd problemlərinə böyük həssaslığı var idi. Bu həssaslıq və diqqət bundan sonra da nəzərə alınmalıdır. İranın Ermənistanla əlaqələri genişləndirmək siyasəti cənab Müxbirin (prezident əvəzi - red.) rəhbərliyi altında davam edəcək. İran və Ermənistan arasında münasibətlərin əleyhdarları var, ona görə də hər iki ölkə ilə bağlı məsələlər böyük diqqətlə həll olunmalıdır”, - o bildirib.

Bu arada, İran-Ermənistan münasibətləri ilə bağlı yeni detallar və faktlar yayılmaqdadır. “Son günlər Ermənistan və erməni xalqı sizə çox isti münasibət nümayiş etdirir”. Musavat.com erməni mediasına istinadən xəbər verir ki, bunu mayın 23-də İranın Ermənistandakı səfirliyinə ziyarət gerçəkləşdirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının primatı, arxiyepiskop Baqrat Qalstanyan İranın Ermənistandakı səfirinin müavini Bəhram Toheri ilə söhbətində deyib. Qalstanyanın sözlərinə görə, özü İrəvanda doğulsa da, ailəsi İrandandır. Toheri öz növbəsində bunları deyib: “Qeyd etməliyəm ki, son günlər Ermənistan və erməni xalqı çox isti münasibət nümayiş etdirib və bizə dəstək veriblər, buna görə hamınıza minnətdarıq”.

Ermənistan xarici işlər nazirinin müavini Vahan Kostanyan isə İranın Ermənistana dəstəyi haqda jurnalistlərə danışıb. “İran birbaşa Ermənistanın ərazi bütövlüyünü müdafiə edir və indiyə qədər hansı dövlətlərin belə bəyanatlar vermədiyi göz qabağındadır”, nazir müavini deyib. “Ermənistan və İran arasında daimi açıq dialoq mövcuddur. Bu da ölkələr arasında qurulan münasibətlərin əsas təminatlarından biridir. Ermənistan və İranda hökumətlərin tərkibindən asılı olmayaraq, regional məsələlərdə iki ölkənin mövqeləri kifayət qədər yaxındır. Həm İran, həm də Ermənistan regionda vəziyyətin sabitləşməsi üçün daim çalışacaqlar”, - deyə Kostanyan əlavə edib.

Əlbəttə, Ermənistana heç bir qonşusu hücum etməyə hazırlaşmır. Üstəlik, Azərbaycan 3+3 formatında əməkdaşlığı təklif edir. İki qonşusuna - Azərbaycan və Türkiyəyə qarşı konstitusion (dövlət) səviyyəsində ərazi iddiasını davam etdirən, işğalçı ordu qurmağa çalışan da yenə məhz Ermənistandır. Odur ki, kapitulyant ölkənin sərhədləri sarıdan hər hansı “həssaslığa” gərək yox... Bəs bir neçə “stul”da oturmağa vərdiş etmiş, Qərb-Rusiya-İran arasında oyunbazlıq edən Paşinyan hökuməti hara kimi həm də “iranpərəst” görünə biləcək? “İran və Ermənistan arasında münasibətlərin əleyhdarları var” deyən Xameneyinin bu sözlərini, əslində isə xəbərdarlığını İrəvan ciddiyə alacaqmı?

**Deputat Arzu Nağıyev “Yeni Müsavat”a açıqlamasında Tehran-İrəvan münasibətlərinin hazırkı durumu ilə bağlı bunları söylədi:** “Məlumdur ki, İranın xarici siyasətində Ermənistanın öz yeri var və vasitə kimi istifadə olunur. Əli Xameneyi tərəfindən mayın 22-də İbrahim Rəisinin vida mərasimində iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyanla görüşü zamanı, həmçinin prezidenti müvəqqəti əvəz edən Müxbiriyə edilən tövsiyədə də bu, bariz şəkildə göründü. Nikol Paşinyan da öz növbəsində bildirdi ki, İbrahim Rəisi ilə onu təkcə tərəfdaşlıq deyil, həm də isti dostluq münasibətləri bağlayırdı ki, bu da Ermənistan-İran münasibətlərində özünü göstərirdi. Baş nazir ümidvar olduğunu bildirib ki, İbrahim Rəisi ilə nəzərdə tutulan planlar, eləcə də iki ölkə arasında münasibətlərdə müsbət tendensiya davam edəcək”. **A.Nağıyev hesab edir ki, Paşinyan başqa cür danışa da bilməzdi:** “Çünki daxildə baş verən hadisələr, hətta onun istefası gündəmə gətirilirsə, öz havadarlarından biri kimi İranı seçməlidir. Deməli, həm Qərblə, həm də İranla münasibət qurmağa çalışan Ermənistan daxili auditoriyanı sakitləşdirmək üçün siyasi gedişlər etməlidir. Burada da Qərb və İranın bir-birinə olan münasibəti nəzərə alınmalıdır. Baxmayaraq ki, Ermənistan İranla münasibətlərinin normal olduğunu qeyd edir, Ermənistan Statistika Komitəsinin məlumatına görə, 2023-cü ildə Ermənistanla İran arasında ticarət dövriyyəsi 2022-ci illə müqayisədə 2,5% azalaraq 692 milyon 496,8 min dollar təşkil edib”.

**Azərbaycanla münasibətlərə gəldikdə, deputat qeyd etdi ki, İbrahim Rəisi faciəli ölümündən əvvəl baş vermiş hadisədə iştirakı ilə nəhayət, öz xalqına iqtisadi tərəqqi və Azərbaycanla əməkdaşlıq üçün yeni imkanlar açdı:** “Məlumdur ki, iki ölkənin sərhədində həyata keçirilən layihə Azərbaycan və İslam Respublikası xalqları üçün böyük əhəmiyyət kəsb edir. Həmin görüşdə Rəisinin gələcək nəsillərə ünvanlanan tövsiyəsi - "İki xalq, iki dövlət arasında çox mühüm böyük layihələrin həyata keçirilə bilməsi özlüyündə əlamətdar hadisədir. Ola bilsin ki, bizim görüşlərimiz, birgə uğurlarımız kimsənin xoşuna gəlmir. Bizim üçün fərqi yoxdur. Əsas odur ki, biz birlikdə ölkələrimizin, dövlətlərimizin və xalqlarımızın xeyrinə olanı həyata keçirək". Ermənistan və digərləri bundan bir nəticə çıxarmalıdırlar. Prezident İlham Əliyev öz növbəsində sərhəddə keçirilən görüş və hidrotexniki qurğuların açılışının İran-Azərbaycan münasibətlərinin tarixinə parlaq səhifə kimi düşəcəyinə və bu layihənin iki xalqı, iki ölkəni daha da sıx birləşdirəcəyinə əminliyini ifadə etdi. Bir sözlə, bu hadisə ilə İran və Azərbaycan dövlətləri güclü birgə siyasi iradə nümayiş etdirərək öz xalqlarına və bütün dünyaya açıq şəkildə bəyan etdilər ki, bir yerdədirlər və bundan sonra da belə olacaqlar. Yəni Qərb də, digər havadarlar da başa düşməlidirlər ki, regional məsələlər region ölkələrinin bilavasitə iştirakı və iradəsi ilə həll edilməlidir. Nə qədər çətinliklərimiz olsa da, bundan öz məkrli siyasətləri üçün istifadə etməyə çalışsalar da, bu məsələlərdə Azərbaycanla İranın baxışları tam üst-üstə düşür..."







**Arzu Nağıyev:** “Qərb də, digərləri də başa düşməlidir ki, regional məsələlər region ölkələrinin bilavasitə iştirakı və iradəsi ilə həll edilməlidir”
**Sahib Məmmədov:** “Ümid edirəm ki, ali dini rəhbərin dəfn mərasimində Ermənistan baş nazirinə bildirdiyi fikirlər yaxşılaşmaqda olan İran-Azərbaycan münasibətlərinə təsir etməyəcək”
**İlyas Hüseynov:** “Ermənistanın baş naziri ”iranpərəst" görünməyə çalışsa da, İran Paşinyanın geosiyasi istəyindən məlumatlıdır və regional münasibətlər yenidən nəzərdən keçirilib"

**Sosial Tədqiqatlar Mərkəzinin icraçı direktoru Sahib Məmmədov** “Yeni Müsavat”a bildirdi ki, İranın ali dini lideri Əli Xameneyinin Ermənistanın baş naziri Paşinyanla dəfn mərasimi zamanı görüşündə “İranın Ermənistanla əlaqələri genişləndirmək siyasəti davam edəcək” fikirlərini bildirməsində yeni heç nə yoxdur: “İranla Ermənstan arasında müttəfiqlik münasibətləri davam edir və yaxın gələcəkdə etməkdə də davam edəcək. İranın siyasətində, o cümlədən Ermənistanla bağlı siyasətində ciddi dəyişiklik gözlənilmir. O ki qaldı ali dini rəhbərin "İran və Ermənistan arasında münasibətlərin əleyhdarları var" fikrinə, onu deyə bilərik ki, Azərbaycan regionda sülhün və əməkdaşlığın bərqərar olması üçün davamlı səy göstərməkdədir. 3+3 və ya “Altılıq platforması”nın yaradılması təşəbbüsünü Azərbaycan Prezidenti İlham Əliyevlə Bakıda keçirdiyi görüşdən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan səsləndirmişdi. Bu təşəbbüsü irəli sürən dövlətlər təbii ki, nəinki İranla Ermənistan arasında, həm də regionda yerləşən bütün dövlətlər arasında əlaqələrin möhkəmləndirilməsində maraqlıdır. Bu təşəbbüs Azərbaycandan gəlib”.

**S.Məmmədovun sözlərinə görə, başqa məsələdir ki, Tehran uzun illər ərzində Ermənistanı həm özü silahlandırıb, həm də başqa ölkələrdən, o cümlədən Hindistandan göndərilən silahların İran ərazisindən keçməsinə şərait yaradıb:** “Normal iqtisadi və siyasi münasibətlərin olmasında ən çox maraqlı olan dövlət Azərbaycandır. Sərhəd məsələsinə "həssaslıq" da yersizdir. Zəngəzur dəhlizi İranla Ermənistan arasında sərhəd üçün heç bir problem yaratmır. Oradan dəmir yolu və avtomobil yolunun keçməsinin sərhədə heç bir dəxli yoxdur. Yolları Ermənistanın özü çəkib, özü də sahibi ola bilər. Yeganə tələb həmin yoldan Azərbaycan yüklərinin, nəqliyyat vasitələrinin və sərnişinlərin maneəsiz keçməsi ilə bağlıdır”.

**S.Məmmədov İranın ehtiyatlı olmasını zəruri saydı:** “Ermənistanın "çoxvektorlu" siyasəti nəinki İran, həm də region üçün təhlükə yaradır və regiona kənar güclərin müdaxiləsinə imkan yaradır. Əgər İran ən qatı düşmənlərinin onun sərhədində və sərhədinə yaxın ərazidə yerləşməsindən narahat deyilsə, o zaman təhlükəni görmədən davam edə bilərlər. Ümid edirəm ki, ali dini rəhbərin dəfn mərasimində Ermənistan baş nazirinə bildirdiyi fikirlər yaxşılaşmada olan İran-Azərbaycan münasibətlərinə təsir etməyəcək”.

**O ki qaldı İran dövlət rəhbərlərinin faciəli həlakı ilə bağlı Azərbaycanda matəm elan olunmamasına, icraçı direktor qeyd etdi ki, bizdə belə bir praktika yoxdur:** “Azərbaycan Prezidenti baş vermiş hadisəyə ilk reaksiya verən dövlət rəhbəridir. Ölkə rəhbəri İran İslam Respublikasının Azərbaycandakı səfirliyində olub və başsağlığı verib. Ölkəmiz son 35 ildə dəfələrlə faciələrlə üzləşib, matəm günlərimiz olub. Biz həmişə dərdimizi özümüz çəkmişik. Dərdlərimizə və faciələrimizə acıyan bütün dövlətlərə və xalqlara minnətdarıq. Biz də həm dövlət, həm də xalq olaraq qonşu İranda baş verən faciədən təəssüfləndik. Bir daha Allah rəhmət eləsin”.

**STM-in sektor müdiri, politoloq İlyas Hüseynovun sözlərinə görə, Ermənistanın baş naziri Nikol Paşinyan helikopter qəzası ilə bağlı İrana getməsi ilə göstərməyə çalışdı ki, Tehranla münasibətlərə önəm verir:** “Eyni zamanda İranın ali dini lideri Əli Xameneyi ilə görüşdə də müsbət mesajlar verildi. Bu gün Azərbaycanla Ermənistanla arasında sülh danışıqları müstəvisində sərhədlərin müəyyənləşdirilməsi prosesi gedir. Qardaş Türkiyə də regional kommunikasiyaların öz işini bərpa etməsini, sərhədlərin açılmasını, Azərbaycanla Ermənistan arasında yekun sülh müqaviləsinin imzalanmasını və diplomatik təmasları dəstəkləyir. Buna görə də İrəvanın Türkiyə və Azərbaycana qarşı ərazi iddiaları ilə çıxış etməsi və silahlanmaya üstünlük verməsi tamamilə yolverilməzdir”.

**İ.Hüseynovun qənaətincə, Paşinyan uzun müddətdir ki, İran-Rusiya-Qərb üçbucağı arasında özünə tərəfdaş axtarışında olsa da, bir-birinə zidd addımlar atır:** “Avropa İttifaqının müşahidəçi missiyasının Ermənistan ərazisində yerləşməsi buna bir misaldır. Əsas məsələ bundan ibarətdir ki, Ermənistanın baş naziri "iranpərəst" görünməyə çalışsa da, İran Paşinyanın geosiyasi istəyindən məlumatlıdır və regional münasibətlər yenidən nəzərdən keçirilib”.

❑ **E.PAŞASOY,
“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

# Nazir büdcənin icrasına dair rəqəmləri açıqladı - MM-də müzakirələr

## İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən 5581,6 milyon manat vəsait ayrılıb; "2024-cü ilin dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisə daxil olub

**23 mayda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. İclasın gündəliyinə bir məsələ daxil edilib. Deputatlar "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikası qanununun layihəsini (birinci oxunuş) müzakirə ediblər.**



Müzakirələrdə maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov da iştirak edib. Qeyd olunub ki, 2023-cü il dövlət büdcəsi kəsirinin yuxarı həddi 2734,3 milyon manat məbləğində təsdiq olunsa da, faktiki kəsir 1221,5 milyon manat təşkil edib. Bu barədə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatda qeyd olunub. Məlumata görə, dövlət büdcəsinin kəsiri 2023-cü ilin faktiki ÜDM-nin 1,0 faizini təşkil etməklə, proqnozlaşdırılmış həddən 1,5 faiz-bənd azdır. Kəsirin proqnoza qarşı əhəmiyyətli dərəcədə daralması ilk növbədə fiskal orqanlar tərəfindən dövlət büdcəsinin gəlirləri üzrə daxilolmaların artıqlaması ilə təmin edilməsi və dövlət büdcəsinin xərclərinin 166,9 milyon manatlıq hissəsinin (0,5 faiz) icra edilməməsi hesabına olub. 2023-cü il dövlət büdcəsini kəsirinin maliyyələşdirilməsi həmin il üçün qəbul olunmuş borclanma proqramına uyğun olaraq cəlb edilmiş vəsait, dövlət əmlakının özəlləşdirilməsindən daxilolmalar və vahid xəzinə hesabının sərbəst qalığı hesabına həyata keçirilib. 2023-cü il icmal büdcənin gəlirləri 43060,1 milyon manat proqnoza qarşı 6988,9 milyon manat və ya 16,2 faiz çox icra edilməklə, 50049,0 milyon manat təşkil edib. Bu, 2022-ci illə müqayisədə 6951,4 milyon manat və ya 16,1 faiz çoxdur. İcmal büdcənin xərcləri 41269,8 milyon manat proqnoza qarşı 921,7 milyon manat və ya 2,2 faiz az icra edilsə də, 2022-ci illə müqayisədə isə 5274,5 milyon manat və ya 15,0 faiz çoxdur.

Rəsmi sənəddə qeyd olunur ki, icmal büdcənin tərkib hissəsi olan Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin gəlirləri Fondun 6268,0 milyon manat məbləğində təsdiq olunmuş göstəricisinə qarşı 6675,2 milyon manat və ya 407,2 milyon manat (6,5 faiz) çox, yəni 106,5 faiz icra olunub. Bu, 2022-ci illə müqayisədə 945,5 milyon manat və ya 16,5 faiz çoxdur. Fondun gəlirlərinin 22,0 faizini və ya 1467,8 milyon manatını dövlət sosial müdafiə fondunun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsindən ayrılan vəsait (2022-ci ilə nisbətən 335,8 milyon manat və ya 29,7 faiz çox), 78,0 faizini və ya 5207,4 milyon manatını (2022-ci ilə nisbətən 609,7 milyon manat və ya 13,3 faiz çox) məcburi dövlət sığorta haqlarından və sair mənbələrdən daxilolmalar təşkil edib.

Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin xərcləri təsdiq olunmuş 6268,0 milyon manata qarşı 6080,7 milyon manat (187,3 milyon manat az) və ya 97,0 faiz icra olunmuşdur ki, bu da 2022-ci ilə nisbətən 828,6 milyon manat və ya 15,8 faiz çoxdur. İşsizlikdən sığorta fondunun büdcəsinin gəlirləri təsdiq olunmuş 217,7 milyon manat proqnoz göstəricisinə qarşı 259,4 milyon manat və ya 19,2 faiz çox icra olunub. 2024-cü il 1 yanvar tarixinə Azərbaycan Respublikasının dövlət borcunun (xarici və daxili) ümumi məbləği 26850,4 milyon manat olub.

Bu, 2023-cü il üzrə faktiki ÜDM-in (123005,5 milyon manat) 21,8 faizini təşkil edib. Ümumi dövlət borcunun 40,9 faizi xarici dövlət borcunun, 59,1 faizi isə daxili dövlət borcunun payına düşür (Qrafik 26) ("Aqrarkredit" QSC-nin daxili dövlət borcuna aid edilmiş 9351,0 milyon manat məbləğində öhdəlikləri nəzərə alınmadan, dövlət borcunun 62,8 faizi xarici dövlət borcunun, 37,2 faizi isə daxili dövlət borcunun payına düşüb.

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün 2023-cü ilin dövlət büdcəsindən cəm olaraq 5581,6 milyon manat vəsait ayrılıb. Modern.az xəbər verir ki, bu barədə "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsində qeyd olunub. Bu vəsaitin 4800,0 milyon manatı və ya 86,0 faizi işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası ilə bağlı nəzərdə tutulmuş məqsədli xərclərin, 145,4 milyon manatı və ya 2,6 faizi Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondunun, 138,9 milyon manatı ("Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 19.6-cı maddəsinə uyğun olaraq 2023-cü il dövlət büdcəsinin bəzi xərclərinin icrası zamanı qənaət olunmuş vəsait hesabına dövlət büdcəsinin ehtiyat fonduna əlavə yönəldilmiş 136,5 milyon manat vəsait nəzərə alınmaqla) və ya 2,5 faizi dövlət büdcəsinin ehtiyat fondunun, 32,5 milyon manatı və ya 0,6 faizi dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) xərclərinin, 464,8 milyon manatı və ya 8,3 faizi dövlət büdcəsində nəzərdə tutulmuş məqsədli xərclər hesabına ayrılmış vəsaitlərin payına düşür.

Həmin vəsaitin 5245,5 milyon manatı infrastruktur təyinatlı layihələrin tikintisinə, yenidən qurulmasına (yol infrastrukturlarının layihələndirilməsinə, tikintisinə, yenidən qurulmasına 3773,8 milyon manat (avtomobil yollarına 3471,8 milyon manat, dəmir yollarına 302,0 milyon manat), yeni yaşayış komplekslərinin layihələndirilməsi və tikintisi işlərinin aparılmasına (839,5 milyon manat), yeni su elektrik stansiyalarının və enerji qovşaqlarının tikintisinə (337,4 milyon manat), meliorasiya işlərinə (245,5 milyon manat), kadastr xidmətlərinin həyata keçirilməsinə (16,6 milyon manat), ərazilərin içməli su təchizatının yaxşılaşdırılmasına (6,6 milyon manat), turizm infrastrukturunun qurulmasına (4,3 milyon manat), bərk məişət tullantıları infrastrukturunun yaradılmasına (2,9 milyon manat) və digər infrastruktur layihələrinə (18,9 milyon manat), 110,2 milyon manatı ərazilərin minalardan təmizlənməsinə, 106,8 milyon manatı müdafiə və hüquq mühafizə təyinatlı obyektlərinin tikintisinə və təmirinə, 59,7 milyon manatı sosial təyinatlı layihələrin (təhsil, səhiyyə, mədəniyyət, idman və bu kimi digər sosial tədbirlərə), 59,4 milyon manatı isə digər tədbirlər üzrə xərclərə yönəldilib.

Dövlət büdcəsindən bəzi qurumlara ayrılan vəsaitlərin əhəmiyyətli hissəsi onların bank hesabında qalıb. Bu barədə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrası haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinə və Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatına Azərbaycan Respublikası Hesablama Palatasının rəyində qeyd olunub.

Dövlət əsaslı vəsait qoyuluşu barədə İcmal Hesabata əsasən, təxminən 600 milyon manatdan çox dövlət büdcəsinin vəsaiti bank hesablarında qalıb. Bundan əlavə, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün ayrılmış və maliyyələşdirilmiş vəsait barədə qurumların məlumatlarının seçmə qaydada təhlili 280,0 mln. manatın bank hesabında qaldığını deməyə imkan verir. Əlavə olaraq, subsidiya, məqsədli maliyyələşmə və digər istiqamətli xərclərin (seçmə qaydada qurumlar tərəfindən təqdim edilən məlumatlar əsasında) 200,0 mln. manatdan çoxu istifadəsiz saxlanılıb. Beləliklə, dövlət büdcəsinin icrasına daxil edilmiş minimum 1,0 mlrd. manatdan çox vəsait bank hesablarında istifadəsiz saxlanılıb.

**"Xarici dövlət borcumuz kifayət qədər aşağı səviyyədədir. Amma aşağı səviyyədə olması ilə yanaşı müəyyən qərarlar qəbul edilib ki, maliyyə kredit təşkilatları ilə əməkdaşlığı bir qədər genişləndirərək". Modern.az xəbər verir ki, bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin bu gün keçirilən iclasında maliyyə naziri Samir Şərifov deyib. Nazir bildirib ki, bu məqamda kreditlərin cəlb edilməsi məqsədəuyğun hesab olunur:** "Bununla əlaqədar xarici dövlət borcunun təxminən 10 milyard dollar səviyyəsinə qədər artırılması nəzərdən keçirilir. Hazırda bu borc 5,5 milyard dollar təşkil edir. Bu il də kifayət qədər ödənişlərimiz olacaq. Bu bizə imkan verir ki, xarici valyutada mühafizəkar borclanma siyasəti apararaq, eyni zamanda ölkəmiz qarşısında duran böyük infrastruktur layihələri icra edə bilək".

**Nazir deyib ki, Azərbaycan hökuməti tərəfindən atılan addımlar sayəsində ötən il orta illik inflyasiya birrəqəmli həddə düşüb:** "Uğurlu inflayasiya tədbirləri cari ildə də davam etməkdədir. İlk dörd ayda illik inflyasiya aşağı olmaqda davam edir. Ötən il Azərbaycanda ÜDM artımı qeydə alınıb və bu artımın hamısı qeyri-neft sektorunun hesabına olub. Ölkəmizin iqtisadiyyatında struktur dəyişiklikləri baş verib. Belə ki, neft-qaz sektorunda azalma qeydə alınıb. Bu göstəricilər qeyri-neft sektorunun daha da sürətli artırılmasının önəmini göstərir".

Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsinin icrasına dair illik hesabatda ali təhsil və digər müəssisələrdə dövlət sifarişi üzrə təhsil alanların xərci də açıqlanıb. Məlumata görə, təqribən bakalavriat səviyyəsi üzrə 100726 nəfər, magistratura səviyyəsi üzrə 12977 nəfər, rezidentura səviyyəsi üzrə 2048 nəfər, doktorantura səviyyəsi üzrə 619 nəfər, ikitərəfli saziş və 26 müqavilələr üzrə əcnəbi 101 nəfər, cəmi 116471 tələbənin müvafiq olaraq 220,0 milyon manat təhsil və 135,4 milyon manat təqaüd xərcləri, cəmi 355,4 milyon manat ödənilib.

**"Ötən il Azərbaycanda 111,6 milyad manatlıq ümumi daxili məhsul (ÜDM) istehsalı proqnozlaşdırılsa da, faktiki rəqəm 123 milyard manat olub, ÜDM-in real artım tempi 1,1 % təşkil edib". Bunu isə müzakirələrin gedişində Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib. Komitə sədri deyib ki, 2023-cü ildə Azərbaycanda dövlət büdcəsinin icra edildiyi makroiqtisadi mühit qənaətbəxş olub:** "İqtisadiyyatda artım izlənilib, bu artım tamamilə qeyri-neft-qaz sektorunun hesabına təmin edilib. Ölkədə adambaşına düşən ÜDM-in dəyəri isə 0,5 % artımla 12,1 min manat olub. Qeyri-neft qaz sektoru üzrə ÜDM-in real artım tempi 3,7 %, payı 63,2 %, neft qaz sektoru üzrə ÜDM-in real artım tempi 1,7%, payı 36,8% olub. Neftin büdcə qiyməti 60 ABŞ dollarından götürülsə də, "Azeri Light" markalı "qara qızıl"ın bir barelinin orta illik qiyməti 43,5 % çox - 86,1 ABŞ dolları təşkil edib. Azərbaycanda əhalinin nominal gəliri 12,8 % artaraq 78,1 milyard manat olub".

"2024-cü ilin dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsi Milli Məclisə daxil olub. T.Mirkişili bunu "Report"a açıqlamasında deyib. Komitə sədrinin sözlərinə görə, layihə gələn həftə parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında müzakirəyə çıxarılacaq.

**E.PAŞASOY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

# Ukrayna üçün son tarix - müharibə bitir, ölkə NATO-ya girir?

## Ekspert: “Qərbdə səslənən bu kimi fikirlər Rusiyanı daha da aqressivləşdirir”

**NATO-nun ABŞ-da keçiriləcək iyul sammiti yaxınlaşdıqca Vaşinqton daha aydın şəkildə Ukraynanı alyansa qoşulmağa dəvət edə bilər. Bu barədə Qərb mənbələri bildirir. Bayden və administrasiyasının digər mühüm vəzifəli şəxsləri açıq şəkildə deyirlər ki, müharibədən əziyyət çəkən Ukrayna yekunda bloka qoşulacaq.**



Dövlət katibi Entoni Blinken ötən həftə Kiyevdəki çıxışında bildirib ki, ABŞ Ukraynanı NATO-ya yaxınlaşdırır. Kiyev və onun NATO daxilindəki bəzi müttəfiqləri, xüsusən Şərqi Avropadakı müttəfiqləri Ukraynanın hələ müharibə vəziyyətində olduğuna, NATO-ya daxil ola bilməyəcəyinə baxmayaraq, çoxdan onun dəvət olunmasında israr edirlər. Keçən il Vilnüs sammitində NATO liderləri bildiriblər ki, Ukraynanın gələcəyi alyansdadır, lakin dəvətnamə verməyiblər və ya üzvlük müddətini müəyyən etməyiblər.

Hadson İnstitutunda Avropa və Asiya Mərkəzinin direktoru Piter Ruq deyir ki, Vaşinqtondakı növbəti sammitdə Ukraynaya üzvlük təklif etmək məntiqli olardı. Qoşulma tarixi isə bütün NATO üzvləri şərtlərin buna imkan verdiyini hesab etdikdən sonra müəyyən ediləcək: “2008-ci ildə Buxarest sammitində NATO üzvləri razılaşıblar ki, Ukrayna son nəticədə alyansa qoşulacaq, ABŞ da bunu dəstəkləyib. Lakin təxminən 16 il keçməsinə baxmayaraq, Ukrayna hələ də kənarda qalıb. Rusiya Ukraynada uduzsa, bu, Mərkəzi Asiyada, Qafqazda və Moldovada Rusiyanın nüfuzunu zəiflədə bilər. Buna görə də Qərb ilk növbədə ukraynalıları gücləndirməli və onlara döyüş meydanında uğur əldə etmək imkanı verməlidir”.

Öz növbəsində Pentaqonun rəhbəri Lloyd Ostin qarşıdakı həftələr və ayların müharibənin nəticəsi üçün kritik olacağını söyləyib. “Siz həftədən həftəyə Ukraynaya Amerika yardımının davamlı axınını görəcəksiniz. ABŞ artıq Ukraynanın bir çox təcili ehtiyaclarını qarşılayıb”, - deyə o vurğulayıb.

Bir qrup amerikalı konqresmen isə Ostinə məktub göndərərək, Ukraynanın Rusiya daxilindəki hədəflərə zərbə endirmək üçün ABŞ tərəfindən verilən silahlardan istifadə etməsinə icazə verilməsini tələb edib.

Bu arada (mayın 18-də) Ukraynada səfərbərliyin sərtləşdirilməsi haqqında qanun qüvvəyə minib. KİV-in məlumatına görə, hakimiyyətin məqsədi cəbhədə Rusiyanın hücumlarını dəf etmək üçün səfərbərliyi sürətləndirməkdir. Başqa sözlə, hökumət hərbi xidmətə cəlb olunanlarla bağlı müxtəlif məhdudiyyətləri və tədbirləri gücləndirməklə bu göstəricilərə nail olmağa çalışacaq. Yeni qanuna əsasən, yaşı 18-dən 60-a qədər olan bütün ukraynalı kişilər hərbi qeydiyyat və komissarlıqda məlumatlarını yoxlamalıdırlar. Bunun üçün iyulun 18-nə kimi 2 ay vaxt ayrılıb.

Bəs iyul ayı Ukrayna üçün doğrudanmı kritik ola bilər? Müharibə bitir, Ukrayna NATO-ya alınır?

**Hərbi ekspert Ramil Məmmədli “Yeni Müsavat”a deyib ki, NATO müharibə başlayan gündən Ukraynada mövcuddur:** “Əslində Ukraynada müharibə başlanan ilk gündən NATO ölkələri faktiki olaraq müharibənin tərkib hissəsinə çevriliblər. Təminat, təchizat, şəxsi heyətin hazırlanması istiqamətində NATO ölkələri də müharibənin iştirakçısıdır. Ukrayna hərbçiləri həmçinin NATO ordularında təlim keçirlər. Həm də NATO ölkələrinin təlimçiləri Ukrayna ordusunda xidmət aparır. Bu baxımdan NATO-nun Ukrayna müharibəsində iştirak etmədiyini söyləmək doğru olmaz”.

**Hərbi ekspert hesab edir ki, Fransanın Ukraynaya qoşun göndərmək təklifi və bəzi NATO ölkələrinin həmin təklifə dəstək olması, sadəcə olaraq, Rusiyaya hərbi-siyasi kontekstdə təzyiq vasitəsidir:** “NATO açıq şəkildə müharibəyə qoşularsa, həm müharibənin miqyası böyüyəcək, həm də təlafat, itkilər, dağıntıların miqdarı artacaq. Belədə, dolayısı ilə üçüncü dünya müharibəsinin əsası qoyular. NATO-nun lokomotivi olan ABŞ Rusiya ilə açıq müharibədən çəkinir. Daha doğrusu, Parisin fikrini dəstəkləmir”.

**Ramil Məmmədlinin sözlərinə görə, Qərbdə səslənən bu kimi fikirlər Rusiyanı daha da aqressivləşdirir. Halbuki NATO ölkələri hərbi birləşmələrinin Ukraynaya daxil olması hazırkı mərhələdə mümkün deyil:** “Amma müharibənin miqyası böyüsə, Rusiya Kiyev istiqamətində irəliləməyə çalışsa, yalnız bu halda NATO ölkələrinin hərbi koalisiyası Ukrayna ərazisinə daxil ola bilər. Lakin bu hadisə müharibənin miqyasını daha da böyüdəcək. Hətta Şərqi Avropa da müharibə poliqonuna çevrilə bilər”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

# Rusiya Azərbaycan-İran münasibətlərinin normallaşmasını alqışlayıb

**Azərbaycan-İran münasibətlərinin normallaşması bütövlükdə Cənubi Qafqaz və Xəzər dənizi regionunda vəziyyətə müsbət təsir göstərəcək.**




APA-nın Moskva müxbiri xəbər verir ki, bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova mayın 23-də keçirdiyi brifinqdə deyib.

Onun sözlərinə görə, Moskva Cənubi Qafqaz ölkələri və onların qonşuları arasında regional layihələrin inkişafında böyük potensial görür: “Xüsusilə bu məntiq Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizinin genişləndirilməsi üzrə işimizdə öz əksini tapıb. Biz Bakı və Tehranla, o cümlədən Rusiya-Azərbaycan-İran dialoq formatı çərçivəsində, həmçinin 3+3 məşvərətçi regional əməkdaşlıq platforması çərçivəsində sıx əməkdaşlığa davam etdirməyə sadiqik. Xatırladım ki, bura Rusiya, İran, Türkiyə, Azərbaycan, Ermənistan və Gürcüstan daxildir. Biz əminik ki, regional oyunçuların özləri kənar müdaxilə olmadan mövcud problemlərin həlli yollarını axtarmalıdırlar. Bunun üçün müvafiq müsbət təcrübə var və biz buna arxalanmalıyıq", - deyə Rusiya XİN sözçüsü qeyd edib.

# Gürcüstana gedənlərin nəzərinə - iyunun 1-dən...



**İyunun 1-dən Gürcüstan ərazisinə xarici vətəndaşların girişi yalnız səfər sığortası ilə mümkün olacaq.**

Sığortanın olmamasına görə 300 lari (186 manat) cərimə tətbiq ediləcək.

Cəriməni 1 ay ərzində ödəməyənlər üçün məbləğ 3 dəfə artaraq 900 lari (558 manat) olacaq.

Gürcüstana səfər edəcək Azərbaycan vətəndaşları da yerli sığorta şirkətlərindən səfər sığortası almalıdırlar. Qiymət səfərin müddətindən asılıdır. Sığorta edilərkən 5 000 ABŞ dolları dəyərində ambulator və təcili yardım xidmətləri, eləcə də 30 000 ABŞ dolları dəyərində stasionar xidmətlər üçün təminat verilməlidir.

Əgər vətəndaş Gürcüstanda nəzərdə tutduğu müddətdən artıq qalmalı olsa, sığortanın müddətini onlayn uzada və yaxud Gürcüstandakı sığorta şirkətlərindən də əlavə səfər sığortası ala bilər. Report

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

# Şadlıq evlərində may durğunluğu - “ənənə” davam edir?

## Aydın Xan Əbilov: “Böyük əksəriyyət bu qadağanı, etiqadı yerinə yetirirsə, deməli, burada nə isə var”

**Adətən may ayında Azərbaycanda toy-nişan mərasimləri keçirilmir. Hərgah buna heç bir dini, qanuni qadağa yoxdur. Bəs bu il necə, “ənənə” nə dərəcədə pozulub? May ayında sifarişlər olubmu?**

Suala cavab almaq üçün bir neçə şadlıq evi ilə əlaqə saxladıq.

**“Tac” şadlıq sarayının administratoru Aqşin Məmmədov** qeyd etdi ki, son 5 ildə artıq may ayı ilə bağlı mif bir qədər dağılmağa başlayıb: “Demək olar ki, son 5 ildə bu məsələ normal hala düşməyə başlayıb. Məsələn, ötən ilin may ayında 20-25 toy mərasimi keçirdik. Bu il isə ümumilikdə toy bazarında zəiflik müşahidə olunur. May ayında isə təxminən 10 toy mərasimi keçirdik.

Bəzən insanlarımız düşünür ki, may ayında toy keçirilməməsi inancı Məhərrəmlik ayı ilə bağlıdır. Amma təbii ki, belə deyil və son 5 ildə insanlar bunu artıq başa düşür".

Digər şadlıq saraylarının əməkdaşları da qeyd etdilər ki, may ayında toy edənlər var, amma onların sayı digər aylarla müqayisədə dəfələrlə azdır.

Bəs niyə hələ də may “vay ayı” hesab olunur? Bu inancın tarixi haradan gəlir?

Bəziləri bu düşüncənin Roma imperiyası dövründə yarandığını iddia edir. Belə ki, may sözü latın dilində “maius” sözündən götürülüb, hansı ki, “May ilahəsi” belə adlandırılıb.

Digər iddialarda isə qeyd olunur ki, Romada may ayında “Lemuriya” adlı tədbir keçirilirmiş. Bu ayda bütün məbədlər bağlanar, dünyasını dəyişənlər yad edilər, dualar oxunarmış. Beləliklə, bu ayda toy, şənlik məclisləri keçirilməyib.

Digər iddialara görə, mayda toy keçirilməməsi bu ayda yasəmən çiçəyinin açması ilə bağlıdır. Belə ki, çiçəyin mənası “ya sən, ya da mən” olduğu üçün mayda əylənməyin, toy keçirməyin düşər-düşməz olduğuna inananlar var. Və yaxud bildirilir ki, may ayında yağışlar çox yağdığından bu ay “ağlayan dövr” kimi xarakterizə olunur. Beləliklə, təbiət ağladığı zaman insanlar da şadlıq etmək, əylənmək istəmir.



Bir qisim yaşlı insanlar qeyd edir ki, may ayında toy edilməməsi ənənəsi təxminən 2 əsr əvvəl Azərbaycana gələn ruslar tərəfindən qoyulub.

Məlum olduğu kimi, həm ruslar, həm də ermənilər arasında may ayının uğursuz olması ilə bağlı bir mif var. Bu gün də bu mifin daşıyıcıları olsa da, artıq buna inanmayanlar üstünlük təşkil edir.

Ermənilər isə bir əsr əvvəl, qondarma erməni soyqırımı ilə əlaqədar hər il aprelin 24-dən mayın 24-dək yas saxlayır, bu müddəti matəm kimi qeyd edirlər. Beləliklə, sovet dövründən bu günə qədər həm ermənilərin, həm də rusların təsiri ucbatından ölkəmizdə hələ də mayı “vay ayı” kimi qəbul edənlər var.

Bununla belə, bəziləri “may ayında toy edilməz” inancını tibbi baxışla da əlaqələndirir. Qeyd edilir ki, bu ayda fəsil dəyişməsi ilə əlaqədar insan orqanizmində həm mənfi, həm də müsbət dəyişikliklər olur. Bu dəyişikliklər insana yüksək əhval-ruhiyyə gətirsə də, qəm-kədər, depressiya halları da yarada bilir. Həmçinin ağır xəstəliklərdən əziyyət çəkənlər orqanizmdə baş verən dəyişikliklər üzündən gözlənilmədən dünyasını dəyişə bilər. Beləcə, may ayı xəstələr üçün ən təhlükəli ay hesab olunur.

İlahiyyatçılar isə qeyd edir ki, may ayında toy keçirilməməsinin dinlə əlaqəsi yoxdur.

**Mövzu ilə bağlı Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov “Yeni Müsavat”a danışıb:** “Xalqımızın formalaşdığı dövrdən bu günə qədər müxtəlif istiqamətlərdən qaynaqlanan inanclarımız var. Məsələn, sırf etnik, milli və ya dini baxışlardan qaynaqlanan və yaxud qonşu xalqlara hörmət əlaməti olaraq onlardan götürdüyümüz inanclar.

Dini baxımdan qaynaqlanan inanclarımız çox genişdir. Çünki burada atəşpərəstlik, şamanizm, qədim tanrıçılıq, eləcə də xristianlıq, islamçılıqdan qaynaqlanan xeyli inanclarımız var.

O ki qaldı may ayında toy, el şənliklərinin keçirilməməsi ənənəsinə, fikrimcə, bu, İslamdan gələn inancla bağlıdır. Belə ki, bəzi vaxtlar Məhərrəm ayı may ayı ilə üst-üstə düşür. Məlum məsələdir ki, xalqımız inancına görə Məhərrəmlik ayında toy etmir.

Həmçinin qədim Romada və slavyan düşüncəsində də may ayında təsərrüfat sahəsində müəyyən çətinliklərin, işlərin ağır olmasına görə bir çox məişət mərasimləri, o cümlədən də toylar dondurulurdu.

Bu məsələnin tibbi tərəfi də var. Məlum olduğu kimi, may ayında xüsusən də gənclərdə qanın dəyişmə, “qan qaynayan” vaxt olur. Həmçinin insanlar qışdan təzə çıxdığı üçün may ayı da yaz ayı olduğuna görə insanların orqanizmində müəyyən mineral çatışmazlıqları olur, çünki bu dövrdə meyvələr hələ yetişmir və sairə. Bu baxımdan bəziləri hesab edir ki, gələcəkdə doğulacaq uşaqların daha sağlam olması üçün gənclər bu dövrdə deyil, yəni may ayından sonra evlənsinlər, nikaha daxil olsunlar.

Beləliklə, bu mövzuda konkret birmənalı fikir səsləndirmək çətindir. Lakin hesab edirəm ki, əgər xalqın böyük hissəsi may ayında toy keçirilməsinin yaxşı olmadığını düşünürsə, buna inanırsa, bu düşüncəyə hörmətlə yanaşmaq lazımdır. Böyük əksəriyyət bu qadağanı, etiqadı yerinə yetirirsə, deməli, burada nə isə var".

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Bakıda 3 məktəb direktoru vəzifəsindən azad edildi



**Paytaxtın 25, 81 və 203 nömrəli tam orta məktəblərində aparılan yoxlamalar zamanı bir sıra nöqsanlar aşkarlanıb və sözügedən təhsil müəssisələrinin direktorları vəzifələrindən azad edilib.**

APA xəbər verir ki, bu barədə Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin açıqlamasında bildirilib.

Belə ki, yoxlamalar zamanı 25 nömrəli tam orta məktəbdə şagird davamiyyətinin zəif olduğu, dərnəklərin fəaliyyəti düzgün təşkil edilmədiyi və məktəb sənədlərinin qaydalara uyğun tərtib olunmadığı müəyyən edilib. Eyni zamanda texniki işçinin əməkhaqqından digər işçilərə ödəniş verildiyi aşkarlanıb.

81 nömrəli tam orta məktəbdə dərsə davamiyyətin zəif olması, dərnəklərin tədris edilmədiyi, zəruri dərs saatlarının bölünmədiyi, fərdi təhsilin düzgün aparılmadığı məlum olub. Məktəbdə eyni zamanda kiçik xidmətedici işçilərin öz vəzifələrini icra etmədikləri, təsərrüfat işləri üzrə direktor müavininin uzun müddət onun tabeliyində gözətçi işlədiyi aşkar edilib.

203 nömrəli tam orta məktəbdə aparılan yoxlamalara gəlincə, müəyyən edilib ki, dərsdənkənar məşğələlər düzgün təşkil edilməyib, məktəb sənədləri qaydasında deyil. Həmçinin təsərrüfat işləri üzrə direktor müavininin həyat yoldaşının onun tabeçiliyində ocaqçı vəzifəsində çalışdığı, texniki işçilərin gündəlik davamiyyətinin olmadığı və təhsil müəssisəsində repetitorluq fəaliyyətinin olduğu müəyyənləşdirilib.

# “Qadınlar kişilərdən inciməsin, onları Allah belə yaradıb” - daha bir qalmaqal

**Azərbaycan şahmat millisinin üzvü Şəhriyar Məmmədyarovun qadınlar haqda dediyi fikirlər əks-səda yaradıb. Bu müzakirə insanları iki yerə bölüb. Qadınlar və kişilər arasında isə arasıkəsilməz mübahisələr başlayıb.**

Maraqlıdır, görəsən, hər iki tərəfin bu mövzunu belə qabartmağı nə ilə bağlıdır?

**Tanınmış yazıçı Seyran Səxavət** son günlər aktual olan mövzu ilə bağlı fikirlərini “Yeni Sabah”la bölüşüb. Bildirib ki, belə bir məsələnin müzakirəyə çıxarılması olduqca yersizdir:

“Əslində bu o qədər mənasız bir mübahisədir ki... Bir adam bir söz deyib, sonra da çəkilib kənarda durub. Elə adamlar bu məsələyə qarışır ki, bu da son dərəcə mənasızdır. İnanmıram ki, dünyanın hər hansı bir ölkəsində belə bir müzakirə mövzusu olsun. Dünya nə ilə məşğuldur, amma biz nəyin mübahisəsini edirik? Sadəcə, utancvericidir. Şəhriyar da öz fikrini açıqlayıb. Düz də deyib. Çünki qadın qadındır, kişi də öz yerində kişidir”.

**Yazıçı qeyd edib ki, deyilən fikirlərlə razılaşmayan qadınların bu üsyanı kişilərə qarşı deyil:** “Qadınlara zəif deyilibsə, bunu qəbul etməli və inciməmlidirlər. Çünki burada onlar əgər inciyirsə, bu reaksiya kişilərə yox, Uca Yaradana qarşıdır. Allah qadınları belə yaradıb. Ona görə də belə müzakirələrin ortaya çıxmasını mənasız sayıram. Bu haqda danışmaq odu söndürüb külü ilə oynamaq deməkdir. Bu, onların yaradılışı, anatomiyasıdır. Bu, Allahın əl işidir. Yer üzündə neçə qadın və kişi hökmdar olub? Bütün bunlar çox mənasız mübahisədir, vəssalam”.



Seyran Səxavət

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

**“Erməni Apostol Kilsəsi tarix ərzində "təsir agenti" olub". “Yeni Müsavat” xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentin iclasında deyib.**

# Paşinyan kilsəni bitirmək anonsu verdi - keşiş Baqratın sonuncu “patronu” isə...

## Baş nazir ittiham edib ki, Erməni Apostol Kilsəsi “təsir agenti”dir və iki-üç aya bu məsələni həll edəcək; kilsədən vergi tutulması da gündəmdədir

“Orta əsrlərdə din xadimləri xeyir-dua almaq üçün Bizansa gedirdilər, daha sonra isə təsir agentinə çevrilirdilər. Görünən budur ki, bu günə kimi onlar üçün heç nə dəyişməyib. İki-üç aya bu məsələni həll edəcəyik”, - Paşinyan qeyd edib. Bu bəyanatı kilsəyə qarşı müharibə anonsu kimi qiymətləndirmək olar. Paşinyan sonuncu müqavimət mərkəzi olan kilsəni də zərərsizləşdirməklə hakimiyyətdə möhkəmlənməyə hazırlaşır. Amma iki-üç ay ərzində nələr olacağını proqnozlaşdırmaq çətindir, yalnız agentura şəbəkəsinin ifşası və həbslərin başlanacağını təxmin etmək olar. Yeri gəlmişkən, arxiyepiskop Baqrat Qalstanyanın rəhbərlik etdiyi etirazlara görə Ermənistandakı kilsədən vergi tutula bilər. Bu təklifi Ermənistan Milli Assambleyasının spikeri Alen Simonyan səsləndirib. Siyasətçi kilsənin siyasətə qarışmasını pisləyib. Deyib ki, dini mərasimlərin mitinqə çevrilməsi yolverilməzdir.

Ermənistanda radikal-revanşist zümrənin hakimiyyətə qarşı sərhədlərin delimitasiyasına etirazdan başlayan hərəkatı xeyli zəifləsə də, hələ ki tam sönmüş də sayılmaz. Çünki bu dəfə erməni kilsəsi aranı cidd-cəhdlə qarışdırmağa davam edir. “Biz buna 6 il dözdük - bir neçə gün də bu əzaba, fəlakətə, dağıntıya dözün... İndi aydın və sakit hərəkət edirik”. Bu sözləri Ermənistanın “Vətən naminə” hərəkatının lideri, Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının primatı, təxribatçı və revanşist keşiş Baqrat Qalstanyan jurnalistlərlə söhbətində deyib. O, Paşinyanı devirəcəyinə əminliyini ifadə edib. “Heç nə dəyişməyib, onlar (hakimiyyət - red.) sadəcə, narahatdır. Onlar kiminsə "qulağını" axtarırlar. Çünki özləri hakimiyyətə belə gəliblər. Nəsə deyənlərin tərcümeyi-halına baxın", - keşiş əlavə edib. Onun sözlərinə görə, hər gün bütün ermənilərin katolikosu II Qareginlə görüşür və onunla təfərrüatları müzakirə edir.

Baqratın Paşinyanı devirəcəyinə əminliyi haradandır? Terroru nəzərdə tutur? Baş nazirin təhlükəsizliyi nə dərəcədə etibarlı qorunur? “Hraparak” qəzeti hökumət mənbələrinə istinadən yazıb ki, Paşinyan 24 saat boyunca Baqrat Qalstanyanın addımlarını canlı yayım vasitəsilə izləyir. Nəşrin iddiasına görə, Nikol Paşinyan B.Qalstanyanın çıxışları və mətbuata açıqlamalarını da diqqətlə müşahidə etdikdən sonra hökumət üzvlərinə və ya hakim partiyanın rəhbərliyinə bu bəyanatlara reaksiya verilib-verilməməsi ilə bağlı tapşırıqlar göndərir.

**Siyasi icmalçı Aqşin Kərimovun sözlərinə görə, Ermənistanda baş nazir Nikol Paşinyana qarşı kilsə mərkəzli revanş götürmək cəhdi İrəvanı Azərbaycanla sülh proqramından geri döndərmək məramına xidmət edir**: “Paşinyana qarşı "Vətən uğrunda Tavuş" hərəkatının lideri, arxiyepiskop Baqrat Qalstanyanın “lider” olaraq önə çəkilməsi isə İrəvanın siyasətindəki kilsə ideologiyasını canlandırmaqdır. Bununla kənar oyunçular regionda öz güclərinin mərkəzləşdirilməsini yaratmağı hədəfləyirlər. Kilsə üçün verilən təlimat belədir ki, o, Ermənistanda ideoloji əsaslı sarı simlərə toxunaraq birinci növbədə Paşinyana qarşı olan siyasi qüvvələri və ictimai xadimləri eyni çətir altına toplasın. İkinci etapda vahid cəbhədə toplanan kütlənin hakimiyyətə qarşı itaətsizliyini təşkil etmək hazırlıqları dayanır. Artıq bununla əlaqədar çağırışlar artmaqdadır. Üçüncü mərhələ isə daha təhlükəlidir, mümkündür ki, ordu daxilində Paşinyan əleyhinə olan qüvvələr Azərbaycanla sərhəd bölgələrdə silahlı təxribatların əmrvericisinə çevrilsinlər. Deməli, Ermənistan daxilində narazı qruplar elə bir tezislərə inandırılır ki, ölkədəki zorakılıq gündəlik sabit hala çevrilsin".

**A.Kərimov hesab edir ki, mümkün ssenarilərin bütün mərhələlər üzrə uğurla yekunlaşması çətin görünür**: “Çünki etirazlar hələlik Paşinyana qarşı böyük resurs imkanlarından məhrumdur. Etirazların Paşinyanı devirə biləcək silahlı müqavimət gücü yoxdur. Paşinyanın tərəfdarları və elektoratı önündə ideal qırılma xətti yarada bilmək potensialı zəifdir. Bununla belə, erməni kilsəsinin Azərbaycana nifrətindən istifadə edərək onun yönləndirilməsinə, idarə edilməsinə cəhdlər çoxala bilər. Bu, Paşinyanın hakimiyyət kreslosu üçün də təhdid komponentlərinin tərkib hissəsidir. Buna görə də Paşinyan kilsə əsaslı etirazların baza formalaşdıra bilmək qabiliyyətini araşdırmaq üçün təhlükəsizlik qüvvələrinə "reyd" keçirməyi tapşıracaq".



**Siyasi təhlilçi Asif Nərimanlıya görə, Baqrat Qalstyanın rəhbərlik etdiyi Paşinyanın 2018-ci il ssenarisinin təkrarı olan hərəkatda əsas detal kilsənin indiyə qədər arxa planda yön verdiyi Ermənistan siyasətində aktiv oyunçuya çevrilməsidir:** “Kilsə və Paşinyan arasında qarşıdurma yeni deyil, lakin erməni keşişləri siyasətə açıq müdaxiləyə məcbur edən səbəblər var. Paşinyanın "erməni miflərini" dağıtmaq siyasəti kilsənin ideoloji mövcudluğunu da sual altına alır və görünür, keşişlər təsir imkanlarını qorumaq naminə hərəkətə keçməyə qərar veriblər. Kilsə erməni müxalifətinə ictimai inamsızlıq fonunda siyasi vitrinə çıxmağa məcbur olub, əks təqdirdə, hansısa siyasi fiqurun arxasına sığına, hakimiyyətə qarşı mübarizəni bu formada apara bilərdilər. Paşinyanın opponenti olaraq hələ də Köçəryan və Sərkisyanı görən Ermənistan ictimaiyyəti 44 günlük müharibədən sonra bütün “etiraz planları”na laqeyd münasibət sergiləyib. Hazırda baş verənlər mövcud müxalifətin simasında hakimiyyətə qarşı müqaviməti genişləndirməyin mümkün olmadığını anlayan kilsənin prosesləri ələ almaq gedişidir. Və prosesin məhz Tavuşdan başlanması, “Vətən üçün Tavuş hərəkatı” adlandırılması da təsadüfi deyil".

**Siyasi şərhçinin fikrincə, hərəkatın arxasında konkret bir xarici qüvvənin dayandığını demək çətindir:** “Bu, "erməni miflərinin" dağılmasından qorxuya düşən kilsə və diasporun birgə planı olaraq görünür. Lakin prosesi dəstəkləyən, yaxud hadisələrin inkişafında dəstəkləyə biləcək ölkələr var. Birincisi, Paşinyana daxili təzyiqləri dəstəkləyən Rusiyadır. Ermənistan hakimiyyətinin Rusiyanı ittiham etməsi “Moskvanın Paşinyanı devirmək” tezisini inkişaf etdirmək, müdaxilə edildikdə Qərbdən dəstək əldə etmək, ümumilikdə hərəkatı “etibarsızlaşdırmaq” məqsədi daşıyır. Keşiş Baqratın “Vətən üçün Tavuş hərəkatı” siyasi korporasiyaya bənzəyir: kilsə, həm Qərbdə, həm Rusiyadakı diaspor, “Qarabağ klanı”, Ermənistanda Moskvaya yaxın qüvvələr, bir sözlə, Paşinyana qarşı olan hər kəs burada birləşir, lakin hələ də Nikolun taxtını laxladacaq gücdə deyil".

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

# Gürcüstan Avropa İnsan Haqları Məhkəməsində Saakaşviliyə qalib gəlib

**Avropa İnsan Haqları Məhkəməsində “Saakaşvili Gürcüstana qarşı” işi üzrə Gürcüstan qalib gəlib. APA-nın Tiflis müxbiri xəbər verir ki, bu barədə Gürcüstanın ədliyyə naziri Rati Breqadze Facebook-da məlumat paylaşıb.**



O, əlavə məlumatın tezliklə ictimaiyyətlə paylaşılacağını qeyd edib.

“Strasburq məhkəməsində "Saakaşvili-Gürcüstana qarşı" işi dövlətimizin tam qələbəsi ilə başa çatıb! Təfərrüatlar barədə tezliklə ictimaiyyətə məlumat verəcəyik", - Breqadze bildirib.

# Rusiya Baş Qərargah rəisinin müavini həbs edilib

**Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini-Baş Rabitə İdarəsinin rəisi general-leytenant Vadim Şamarin həbs edilib. APA-nın Moskva müxbiri xəbər verir ki, bu barədə 35-ci hərbi qarnizon məhkəməsi qərar çıxarıb.**



Şamarin xüsusilə külli miqdarda rüşvət almaqda ittiham olunur.

Qeyd edək ki, bu ilin aprel ayında Rusiya müdafiə nazirinin müavini Timur İvanov, daha sonra nazirliyin Kadrlar Baş İdarəsinin rəisi general-leytenant Yuri Kuznetsov, 58-ci ordunun keçmiş komandanı İvan Popov müxtəlif ittihamlarla həbs ediliblər.

Yeni Müsavat
N 90 (8463) 24 may 2024

# Gender söhbəti yenidən gündəmdə - fərqli mövqelər

## Ekspertlər hesab edir ki, "zorən bərabərlik" iddiasından uzaq durmaq hər iki cinsin xeyrinədir

**Xəbər verildiyi kimi, Azərbaycan şahmat millisinin üzvü Şəhriyar Məmmədyarov açıqlamaları ilə müzakirələrə səbəb olub. Yutubda yayımlanan "Persona" verilişində qonaq olan qrosmeyster qadınların bütün sahələrdə kişilərdən geridə olduğunu bildirib.**

"Bacılarınızla rəqabətə çox gedirdiniz" sualına şahmatçı belə cavab verib: "Şahmatda qadın-kişi faktoru çox önəmlidir. Qadınlar kişilərdən çox zəifdir. Düzdür, bu fikir qadınların çoxunun xoşuna gəlməyəcək, amma dünyanın yüz ən yaxşı şahmatçısından biri belə qadın deyil. Yeni heç bir qadın şahmatçı kişilərlə mübarizə apara bilmir. Qadınlar kişilərdən hansı sənətdə üstündür ki?!"



Onun bu sözləri sosial şəbəkələrdə birmənalı qarşılanmayıb, sərt tənqid olunub. Düzdür, peyğəmbərlər arasında da qadın yoxdur. Amma İslam dini qadına, anaya çox böyük dəyər verir. "Cənnət anaların ayaqları altındadır", - buyurub peyğəmbərimiz (s).

**Araşdırmaçı jurnalist, dini məsələlər üzrə mütəxəssis Rəsul Mirhəşimli mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, cəmiyyətdə olan problemlərdən biri insanların müxtəlif məsələlərlə bağlı qarşılıqlı anlaşma şəraitində müzakirələr apara bilməməsidir:** "İki gündür şahmatçımızın dediyi fikirlər sosial şəbəkələrdə dartışma mövzusuna çevrilib. Müşahidələr onu göstərir ki, məsələyə münasibət bildirənlərin böyük əksəriyyəti ortaya atılan fikrin cəmiyyətdə hansı fikir ayrılıqlarına səbəb olacağına, problemlər yarada biləcəyinə deyil, qadının kişidən, yaxud kişinin qadından üstünlüyünü sübut etməyə çalışır. Bu mənzərə müzakirələrin rasional təfəkkürə deyil, maksimalist düşüncəyə söykəndiyi görüntülərini yaradır.

O ki qaldı İslam dininin üstünlük dərəcəsinin təyin edilməsi barədə baxışlarına, dinimiz cinsiyyət fərqi ilə kimisə kimsədən üstün tutmur. Dinimizə görə, üstünlük dərəcəsini təyin edən göstərici təqva, yəni günahlardan ən çox qorunmaqdır.

İslam dini qadına böyük dəyər verir. Dinimiz qadını ümmətin yarısı kimi görür. Eyni zamanda İslam dini qadınlara cəmiyyət üçün insan yetişdirən şəxsiyyət kimi baxır. Dinimizin qadına verdiyi dəyər, onun cəmiyyətdəki yerinin harada olduğu Quran-i-Kərimin ayələri ilə bəyan edilir. Bu dəyərin hansı səviyyədə olduğunu uzun araşdırmalar aparmadan da hər kəsin görməsi mümkündür. Qurani-Kərimin mətnlərində ayrıca "Məryəm", "Nisa" (Qadınlar) surələrinin olması qadının Allah qatında və cəmiyyətdə necə olduğu barədə dinin münasibətini bəyan edir.

Quranın ayələrindən başqa, peyğəmbərimizin də qadınlar barədə buyurduqları dinimizin qadına verdiyi dəyəri öyrənməyə vəsilə olur. "Sizin ən xeyirliniz qadını ilə ən gözəl rəftar edəninizdir", "Qadınlar Allahın sizə əmanətidir" hədisləri ilə qadınların önəminin dinimizə görə baxışlar toplusunu görmək olar. İslam dinində kişi və qadın bir-birilərini tamamlayan varlıqlar kimi qəbul edilir. İslamda qadına dəyər verməyən, qadının ünvanına aşağılayıcı ifadələr işlədən hər bir kişi qınanılır. Eyni zamanda qadınlara qarşı pis rəftar edən kişilər mənfi insanlar hesab olunur".

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu da mövzu ilə bağlı "Yeni Müsavat"a dedi ki, əksinə, qadınlarımız kişilərdən daha güclüdür:** "Ətrafımızda da görürük, qadınlarımız işləyir, öz ayaqları üzərində durmağı bacarır, yeri gələndə ailənin yükünü çiyinlərində daşıyırlar. Baxın, son dövrlər qadına şiddətdən də çox danışılır, boşanmaların səbəbi də bununla bağlıdır. Qadınlar əzaba, şiddətə dözməyib, özlərində güc tapıb boşanır, özlərini də, uşaqlarını da saxlaya bilirlər. Ümumiyyətlə, yaxşı kişi yanındakı qadını ucaltmalı, baş tacı etməlidir. Bu eləcə də qadına aiddir. Hər iki tərəf bir-birinə dəstək olmalıdır. Əgər kişi qadınlar zəifdir deyirsə, bunun özü zəiflik əlamətidir. Bu gün qadınlar artıq çox inkişaf ediblər, həm təhsil səviyyələri, həm də ictimai-siyasi həyatda onların rolu danılmazdır. Bir sözlə, qadınlarımız artıq bir şəxsiyyətdir. Bəzən bu səbəbdən qadınlara qarşı qısqanclıq da var. Kimin də arvadı onu evdə incidir, deyir qadınlar zəifdir".

**Təhsil eksperti Qoşqar Məhərrəmov mövzu ilə bağlı fikirlərini bildirib:** "Qadınlar və kişilər mövzusunda ona görə mövqe bildirmək istərdim ki, burada bir bioloji, bir də sosial cinsiyyət anlayışına toxunmaq istəyirəm. Sosial mənada qadın və kişi xüsusiyyətləri onlara qazandırılıb. Onlar bunu seçməyiblər. Onların bioloji fərqləri göz önündə idi. Bu bioloji fərqlər sosial fərqləri də təbii olaraq doğuracaqdı. Qadın ta qədimdə övladını dünyaya gətirib ona digər məməlilər kimi süd verməli idi. Məhz ona görə də qadın evdə qalmalı oldu. Belə olduqda kişi çöldə ov ovlamalı və yemək gətirməli idi. Beləcə, kişinin əzələ kütləsi çox olmasa öləcəkdi. Bu təbii seçim güclü kişilərin həyatda qalmasına nəticə verdi və əzələli, iti zəkalı olmaq təbii seçimdə selektiv üstünlük oldu. Qadınlar isə evdə qalıb uşaqlarına baxmaqla vəzifələnmiş oldular. Bu bioloji hal günümüzə qədər öz təsirini göstərməkdədir. Qadın və kişi bütün mədəni hüquq sistemlərində bərabərdir. Bu bərabərlik isə sosial həyatda məcburi formaya gətirildiyi zaman hər iki cinsiyyətə əziyyət olar. Ona görə də bərabərlik iddiasından uzaq durmaq hər iki cinsin xeyrindədir. Bəs fərqlər üzərindən əzmək necə? Bu isə məqbul hesab edilə bilməz. Kiminsə hansısa mövzuda üstünlüyünü deməsi, qeyd etməsi, vurğulaması kamil insan anlayışı ilə assosiasiya edilə bilməz. Qeyd etdiyim kimi, kamil insanlar belə bilərəkdən, ya da bilmədən səhv edə, düşünə, danışa bilər".

❑ **Afaq MİRAYİQ,
"Yeni Müsavat**

# Baş prokuror İmişlidə 5 aydır itkin düşən uşaqla bağlı göstəriş verdi

**Ötən il dekabrın 26-dan İmişlidə itkin düşən, Boztəpə kanalında batması ehtimal olunan 2013-cü il təvəllüdlü Xankişiyev Rasim Vasif oğlu ilə bağlı başlanan cinayət işinin icraatı rayon prokurorluğundan alınaraq Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.**



Bu barədə APA-nın Mil-Muğan bürosuna zərəçəkmiş Vasif Xankişiyevin (azyaşlının atası) hüquqi təmsilçisi, hüquq müdafiəçisi Samir Zeynalov məlumat verib. Onun bildirdiyinə görə, Xankişiyev Rasim Vasif oğlunun 26 dekabr 2023-cü il tarixdə İmişli rayonunun Qaragüvəndikli kəndində qeyri-aşkar şəraitdə itkin düşməsi faktı ilə bağlı İmişli Rayon Prokurorluğunda özünə qəsd maddəsi ilə açılmış cinayət işi üzrə icraatın nəticəsizliyinə görə 21 may tarixində baş prokuror Kamran Əliyevin qəbulunda olublar: "Baş prokuror məni və nümayəndəsi olduğum şəxsi, yəni Rasimin atasını şəxsən qəbul etdi. Baş prokurordan konkret olaraq xahişimiz o idi ki, cinayət işinin icraatı İmişli Rayon Prokurorluğundan alınaraq Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilsin. Hadisənin qeyri-aşkar şəraitdə baş verməsini nəzərə alaraq, xahişimiz əsaslı idi. Beləliklə, xahişimiz baş prokuror tərəfindən müsbət dəyərləndirildi. Cinayət işinin icraatı bundan sonra Baş Prokurorluğun İstintaq İdarəsində davam etdiriləcək. Buna görə baş prokuror Kamran Əliyevə minnətdarlığımızı bildiririk".

Onun sözlərinə görə, hazırda azyaşlının axtarış prosesi yüksək intensivliklə davam etdirilir.




# Göyçayda kollecdə 88 min manatın mənimsənilməsi ilə bağlı cinayət işi başlandı

**Göyçay Dövlət İdarəetmə və Texnologiya Kollecində yol verilmiş qanunsuzluqlarla bağlı cinayət işi başlanıb. Göyçay Rayon Prokurorluğundan APA-ya verilən məlumata görə, Kollecdə yol verilmiş qanunsuzluqlarla bağlı daxil olmuş vətəndaş müraciəti əsasında rayon prokurorluğunda araşdırma aparılıb.**

Araşdırma zamanı 01.01.2018-ci il tarixdən 01.12.2023-cü il tarixədək maliyyə-təsərrüfat fəaliyyəti yoxlanılarkən kollecin vəzifəli şəxsləri tərəfindən balansda olan nəqliyyat vasitələrinə heç bir təmir işləri aparılmadan ehtiyat hissələrinin və yanacağın əsassız olaraq məxaricə silinməsi, həmçinin yerinə yetirilməyən təmir və abadlıq işlərinin dəyərinin qəbul aktlarına daxil edilməsi və digər yollarla ümumilikdə 88 min manatdan artıq pul vəsaitinin mənimsənilməsi və israf edilməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə rayon prokrurorluğunda Cinayət Məcəlləsinin 179.2.3 və 179.2.4-cü (qulluq mövqeyindən istifadə etməklə və xeyli miqdarda ziyan vurmaqla mənimsəmə və ya israf etmə) maddələri ilə cinayət işi başlanaraq istintaq aparılır.

YENİ MÜSAVAT
N 90 (8463) 24 may 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Nikah yaşının artırılması erkən evliliyi önləyəcəkmi - rəy

## Kəmalə Ağazadə: "Erkən nişanlılıq məsələsində də inzibati cəza tətbiq edilməsinin zamanıdır"

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi nikah yaşının 1 ildən çox olmayaraq azaldılması halının aradan qaldırılmasını təklif edib. Qeyd edilib ki, Ailə Məcəlləsinin 10-cu maddəsində (üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin yaşadıqları ərazinin müvafiq icra hakimiyyəti orqanı onların xahişi ilə nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər) istisna meyarlarının göstərilməməsi hüquqi baxımdan qeyri-müəyyən hal olaraq qiymətləndirilir.**

Bunu nəzərə alaraq, qanunvericilikdə nikah yaşının azaldılmasına əsas verən üzrlü səbəblərin dəqiqləşdirilməsi və ya nikah yaşının 1 ildən çox olmayaraq azaldılması halının aradan qaldırılması təklif olunur.

Bu arada Bakı şəhərinin 12 rayon icra hakimiyyətinin 2022-2023-cü illər nikah yaşının 1 il azaldılması ilə bağlı statistikası açıqlanıb. 12 rayon üzrə şəhər icra hakimiyyətlərinə erkən evliliklə bağlı 15 müraciət daxil olub. Hamiləlik, uşağın doğulması və digər üzrlü hesab oluna biləcək səbəblər araşdırılmış, nəticə olaraq 2023-cü ildə 9 müraciət üzrə (Sabunçu rayonu 4, Xəzər 3, Suraxanı rayonu 2) nikah yaşının 1 il azaldılmasına sərəncam verilib. Müraciətlərlə əlaqədar vətəndaşlarla profilaktik söhbətlər aparılıb, ailələr nəzərə götürülüb, qanunvericiliyin tələbləri izah edilib və erkən evliliyin qarşısı alınıb. 2022 ci ildə 5 müraciət üzrə icazə verilib. Bu da onu göstərir ki, 2023?cü ildə erkən evliliklə bağlı müraciətlər üzrə icazələrin sayı artıb.

Rayonların 2023-cü il üzrə nikah yaşının 1 il azaldılması ilə bağlı statistikaya gəlincə, yerli rayon icra hakimiyyətlərindən aldığımız məlumata görə, Azərbaycanın 12 iqtisadi rayonu üzrə 293 (2022 ci ildə 269) erkən evliliyin qarşısı alınıb.

Qeyd edək ki, hazırda erkən nikah sosial problem kimi dünyada aktuallıq kəsb edən məsələlərdən biridir. Məlumdur ki, erkən nikah 18 yaşdan aşağı şəxslərin nikaha daxil olmalarıdır. Qanunvericiliyə əsasən, 18 yaşına çatmış şəxslər evlənmək və ailə qurmaq hüququna malikdirlər.

Ölkəmizdə erkən nikah və onun doğurduğu fəsadlar hər zaman diqqətçəkən mövzulardan olub. Zaman-zaman bu fəsadların səbəb olduğu faciələr, problemlər haqqında danışılıb, müzakirələr aparılıb. Araşdırmalar nəticəsində bəlli olur ki, erkən nikaha daxil olma bəzən qızların öz istəkləri, bir sıra hallarda valideynlərinin təzyiqi, ailədə maddi vəziyyətin çətin olması və digər səbəblərdən baş verir.



Qeyd etdiyimiz kimi, Azərbaycanda evlilik yaşı Ailə Məcəlləsi ilə müəyyən olunur. 18 yaşına (yetkinlik yaşına) çatmayan və tam fəaliyyət qabiliyyət əldə etməyən şəxslər uşaq-yeniyetmə hesab olunur. Azərbaycan Respublikasında nikah yaşı 18 yaş müəyyən olunub. Üzrlü səbəblər olduqda, nikaha daxil olmaq istəyən və nikah yaşına çatmamış şəxslərin xahişi ilə onların yaşadığı ərazinin müvafiq icra hakimiyyəti orqanı nikah yaşının 1 ildən çox olmayaraq azaldılmasına icazə verə bilər. Digər hallarda nikaha daxilolma erkən nikah hesab edilir və müvafiq qanunvericiliyə əsasən belə nikahlar etibarsız sayılır. 18 yaş 1989-cu il tarixli Uşaq Hüquqları Konvensiyasında müəyyənləşmiş son həddir, uşaqların nikaha daxil olması insan hüquqlarının pozulması hesab olunur.

Bəs qanunda nəzərdə tutulan 1 illik güzəştin ləğvi erkən nikahları nə dərəcədə önləyə bilər?

**Azərbaycan Uşaqlar Birliyinin sədri Kəmalə Ağazadə mövzu ilə bağlı "Yeni Müsavat"a danışıb:** "Qanunda nəzərdə tutulan 1 illik güzəştin ləğvi ilə bağlı məsələ artıq bir neçə ildir ki, gündəmdədir. Azərbaycan Uşaqlar Birliyi olaraq hər zaman bu məsələnin tərəfində olmuşuq. Bəzən olub ki, il ərzində 100-ə yaxın erkən nikahın qarşısını almışıq. Halbuki qanunvericilikdə nikah yaşı 17-18 yaş arasıdır.

Hesab edirəm ki, Milli Məclisdə qanunda nəzərdə tutulan 1 illik güzəştin ləğvi ilə bağlı təklif qəbul olunarsa, müsbət nəticələrimiz olacaq, erkən nikahların qarşısı alınacaq.

Statistikadan da görürük ki, erkən nikahlılar arasında boşanma halları yüksəkdir. Həmçinin erkən nikahların fəsadları ucbatından ortalıqda qalan uşaqların da sayı yetərincədir.

Burada daha bir problem erkən nişanlılıq məsələsidir. Artıq erkən nişan, "ad qoydu" məsələsini tənzimləmək, inzibati cəza tətbiq etməyin zamanıdır. Bu cəza sutkalıq həbs, böyük cərimə və yaxud valideyn hüquqlarının məhdudlaşdırılması şəklində ola bilər. Belə olduqda valideyn anlayacaq ki, buna görə həbs oluna, böyük məbləğdə cərimələnə və yaxud övladından məhrum ola bilər".

**Kəmalə Ağazadə qeyd edib ki, aparılan operativ tədbirlər sayəsində son zamanlar erkən nikahların azalması müşahidə olunur:** "Lakin bölgələrdə bu məsələ ilə bağlı çox böyük iş aparılmalıdır.

Məlum olduğu kimi, bir neçə gün öncə Hacıqabulun Abdulabad kəndində 17 yaşlı nişanlı qız intihar etdi. Bu intiharın səbəbi haqda hələ ki konkret təfərrüat yoxdur. Lakin həmin Abdulabad kəndindən bizə gələn məlumatlardan belə aydın olur ki, kənddə 15-16 yaşında nişanlanmayana pis baxılır. Demək ki, hər bölgənin özünəməxsus qaydaları, ənənələri var. Həmin ənənələrin üstündən xətt çəkib, qanunu önə çıxartmaq lazımdır və qeyd etdiyim kimi, bununla da bağlı çox ciddi iş aparılmalıdır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

# İşləməyən dəmir pullar dövriyyədən niyə çıxarılmır? - açıqlama

## Natiq Cəfərli: "1 qəpiklik sikkənin istehsal xərci 1 qəpiyin öz dəyərindən yüksəkdir"

## Xalid Kərimli: "Kiçik nominallı qəpiklərin dövriyyədən çıxarılması vətəndaşların ziyanınadır"




**Azərbaycan Mərkəzi Bankı (AMB) nominal dəyəri 1 qəpik olan yenilənmiş metal sikkələri dövriyyəyə buraxıb. Sikkənin arxa tərəfində yeni dizayn elementləri kimi dövlət gerbi, o cümlədən əsginasın buraxılış ili əlavə edilib. Yerdə qalan texniki parametrlər dəyişməz saxlanılıb. Yeni dəmir sikkələr köhnələri ilə birlikdə dövriyyədə olacaq.**

Məlumdur ki, onsuz da nağd ödənişlər zamanı istehlakçılar nəinki 1 qəpikləri, çox vaxt heç 5 qəpikləri götürmürlər. O zaman yeni 1 qəpiklərin dövriyyəyə buraxılması hansı zərurətdən doğub? Onlar niyə dövriyyədən çıxarılmır?

**İqtisadçı ekspert Natiq Cəfərli** "Yeni Müsavat" a şərhində bildirdi ki, Mərkəzi Bankın sikkələrin dövriyyədən çıxarılması ilə bağlı səlahiyyəti yoxdur, ancaq təqdimat verə bilər: "Nominal pul vahidləri yalnız Mərkəzi Bank və hökumətin qərarı ilə dövriyyədən çıxarıla bilər. O ki qaldı 1 qəpiklik sikkələrə, onun istehsal xərci 1 qəpiyin öz dəyərindən yüksəkdir. Belə olan şəraitdə 1 qəpikləri istehsal edib dövriyyəyə buraxmaq iqtisadi baxımdan sərfəli deyil. Təəssüf ki, bununla bağlı detallı məlumat verilmir. Amma dünyada da belə bir təcrübə var. Məsələn, ABŞ-da 1 sentin istehsalı 1,7 sentə başa gəlir. Çox güman ki, Azərbaycanda da belədir. Son illər alış-verişdə kartla ödənişlərə üstünlük verilməsi halları artıb. Bu baxımdan düşünürəm ki, 1 qəpiklərin dövriyyədə saxlanmasına, pul xərcləyib əlavə istehsal edib dövriyyəyə buraxılmasına ehtiyac yoxdur".

**İqtisadçı ekspert Xalid Kərimli isə hesab edir ki, qəpiklər qanuni ödəniş vasitəsidir. Ekspertin fikrincə, aşağı nominallı qəpiklərin dövriyyədə problem yaratması qanun pozuntusudur:** "Aşağı nominallı qəpiklərin manatlıq, yaxud digər nominallı qəpiklərdən heç bir fərqi yoxdur. Digər problem budur ki, ödəniş terminallarında aşağı nominallı qəpiklərdən istifadə etmək olmur. Çox güman ki, bu ödəniş terminallarını proqramlaşdıranlar tez dolması üçün həcmi nəzərə almırlar. Bunun özü də problemdir. Vətəndaş aşağı nominallı qəpiklərdən rahat istifadə edə biləcəyini bilsə, bu onu o qədər də narahat etməz".

**X.Kərimli 1 qəpiklərin dövriyyədən çıxarılması ilə bağlı təkliflərin əleyhinədir**: "Mən bunu doğru hesab etmirəm. Pul dövlətin simvoludur. Əgər kiçik nominallı qəpiklər dövriyyədən çıxarılsa, yuvarlaqlaşdırma edilməlidir. Bu isə vətəndaşların ziyanınadır. Nümunə üçün, əgər bir məhsulun qiyməti 3 manat 12 qəpikdirsə, sahibkar yeni qiyməti 3 manat 10 qəpik yox, 3 manat 15 qəpik kimi müəyyənləşdirəcək. Odur ki, qəpiklərin qiymət hesablamasından uzaqlaşdırılması çətinliklər yaradacaq. Bunun alternativi yoxdur. Digər tərəfdən, paralel aparsaq, kartla edilən ödənişlərin dövriyyələrinin həcminə baxanda 20, yaxud 50 manatlıq əsginaslardan istifadə zərurəti də aradan qalxa bilər. Əvvəllər nağd ödənişlərə üstünlük verilirdi. Hətta əməkhaqqını nağdlaşdırırdılar. "ƏDV-ni geri al", "cashback" layihələri vətəndaşı daha çox kartlarla ödənişə yönəldir. İnflyasiya olmayanda qəpiklərin emal xərci ilə kağızın emal xərci fərqlidir. Biz ödənişlərin formasında vətəndaşlara bərabər hüquqlar yaradırıq. Əgər qiymətdə qəpiklər varsa, qəpiyin texniki olaraq mövcud olması da şərtdir. Odur ki, yuvarlaqlaşdırma vətəndaşın ziyanına inflyasiya olacaq. Bu baxımdan, dövriyyədə qəpiklərin olmasını doğru hesab edirəm. Zatən məlumdur ki, Mərkəzi Bankın qəpik istehsal etdirməsi daha çox xərc tələb edir. Yeri gəlmişkən, daha az nominallı qəpik buraxılmasının daha çox xərci olur, nəinki 200 manatlıq əsginas buraxılmasının. ABŞ iqtisadiyyatı da bunun üzərində qurulub, çünki hər kəs ABŞ dollarını etibarlı qəbul edir və yığmağa üstünlük verir. İnflyasiya çox olarsa, qiymət hesablamalarında da qəpiklərin əhəmiyyəti qalmayacaqsa, o halda denominasiya (köhnə pul nişanlarının qəbul edilmiş nisbət qaydasında yenisi ilə əvəz edilməsi, pul tədavülünün qaydaya salınması və hesablaşmaların asanlaşdırılması məqsədilə milli pul vahidinin miqyas dəyişikliyidir. Buna sadə dillə "sıfırların silinməsi" də deyilir) məsələləri ortaya çıxa bilər. Bu isə Azərbaycan üçün aktual deyil, çünki Azərbaycan manatı kifayət qədər dəyərli valyutadır".

❑ Nigar HƏSƏNLİ, "Yeni Müsavat"

YENİ MÜSAVAT

Son səhifə

N 90 (8463) 24 may 2024

May

# Bunları bilirsinizmi?

* İtaliyada yeni prezident seçilərkən minlərlə vətəndaş bir-birilərinə apelsin ataraq bunu qeyd edir.
* 1865-ci ilin fevralı Ayın bütövlənmədiyi yeganə tarixdir.
* Tarix boyun ən çox film Drakulaya aid çəkilib.
* Şokoladlı peçeniye 1933-cü ildə istehsal olunub.
* Al-Kapone öz 85 illik yubileyini Alkatras həbsxanasında qeyd edib.
* 27 sentyabr Turizm günü kimi bütün dünyada qeyd edilir.
* 1990-cı ildə ABŞ-da 15 000 insanın tozsorandan xəsarət aldığı qeydə alınmışdır.
* Elianora Ruzvelt gündə 3 dəfə şokalada çəkilmiş sarımsaq dilimləri yeyirmiş.
* Bayt sözü səkkiz sözünün qısaldılmışıdır (by eight)
* İudaizmdə qürub-günbatma sutkanın o anına deyilir ki, həmin vaxt qırmızını qaradan seçmək qeyri-mümkün olur.
* Dünyada ən sadiq canlı erkək tülkülər hesab olunur, bilirsinizmi niyə? Çünki ailədə dişi tülkü həlak olarsa, erkək tülkü ömrünün sonuna kimi "subay" yaşayır. Erkək tülkü həlak olarsa, dişi tülkü həmin an özünə yeni erkək kavaler axtarıb tapır.
* Soğanın spesifik iyi onun torpaqdan canına çəkdiyi kükürdün iyidir.
* Skunslar dəhşətli qoxuları ilə yanaşı, ilan zəhərinə qarşı güclü immunitetləri vasitəsilə özlərini müdafiə edə bilirlər.
* Ən uzun öpüş səhnəsini "You're in the Army Now" filmində izləmək olar. Öpüş 3 dəqiqə 3 saniyə davam edir.
* Donuzlar göyə baxa bilmirlər.
* Alman kimyaçısı Hennig Brand kükürdü sidik analizi zamanı aşkarlamışdır.
* Bingemtonda (Nyu York) 9-cu sinif oğlan şagirdlərinin bığ saxlaması qadağandır.
* Dələlər ağacda daha sürətlə qaçırlar nəinki yer üzərində.
* İnsan burnunda 5 milyona yaxın iybilmə hüceyrəsi mövcuddur. Alman ovçarkasında bu, 220 milyona bərabərdir. Araşdırmalar göstərir ki, bu heyvanın iy bilmə qabiliyyəti insanınkından 44 dəfə daha güclüdür.
* ABŞ-ın qeyri-qanuni olaraq ölkəyə gələn gəliri qanuni olaraq daxil olan gəlirindən 10% çoxdur.
* Filmlərdə ən çox yer alan idman növü boksdur.
* Lentəbənzər soxulcanlar yemək tapmayarkən öz-özlərini yeyən yeganə canlıdır.
* Alyaksa universiteti 4 müxtəlif saat qurşağında yerləşir.
* Amerikanın bütün prezidentləri eynək taxır. Hərçənd ki, ictimai çıxışları zamanı onu çıxaranlar var.
* BiG Ben binanın deyil, saat tamam olarkən eşidilən iri zəng mexanizminin adıdır.
* Elizabeth Taylorun iştirakı ilə çəkilmiş Kleopatra filminin Misirdə yayımlanması qadağan olunmuşdur. Səbəb aktrisanın yəhudi soyundan olması idi.
* Yunan allahlarının yeməyinin adı Ambroziyadır.

# Yaponların ixtira etdiyi qaşıq şit yeməyi duzlu edir



Unikal texnologiyaları ilə tanınan yaponiyalı alimlər daha bir müasir cihazları ilə gündəm olmağı bacarıblar. Budəfəki ixtira insan sağlamlığını qorumaq üçündür. Belə ki, onlar şit yeməyə duzlu dad verən "ağıllı" qaşıqlar hazırlayıblar. Elm adamlarının sözlərinə görə, cihaz zəif elektrik cərəyanı ilə natrium ion molekullarını dildə cəmləşdirir və nəticədə yeməyin dadı dəyişir. Həkimlərin fikrincə, belə bir cihaz tez-tez müxtəlif xəstəliklərə səbəb olan həddindən artıq duz istehlakı problemini həll etməyə kömək edə bilər. Qeyd edək ki, bundan əvvəl yaponiyalı alimlər gizli danışıqlar üçün sinxron tərcümə sistemi yaratmışdı.



## Rusiyanın kurort şəhərində dəniz suyu "jeleyə çevrildi"

Rusiyanın Krasnodar diyarının kurort şəhəri Anapa meduzaların istilasına məruz qalıb. Belə ki, meduza sürüsü Qara dənizi "jele dənizinə" çevirib. Şəhər sakinləri bununla bağlı sosial şəbəkələrdə videolar paylaşıblar. Meduzaların "Vısoki bereq" çimərliyinə yaxınlaşdığı bildirilib. Onlara ilk dəfə ərazidəki sörfçülər diqqət yetiriblər. İnternet istifadəçiləri şərhlərdə meduzaların soyuq sularla birlikdə sahilə doğru hərəkət edə biləcəyini iddia ediblər. Həmçinin dəniz canlılarının ordusunu bölgəyə Gürcüstan, Abxaziya və Türkiyədən axınların gətirə biləcəyi ehtimal olunub.

## Günəş saç tökülməsinə səbəb ola bilər

Yaz aylarında saç və baş dərisi xüsusi qulluq tələb edir. Bunu rusiyalı dermatoloq Mariya Vasilyeva deyib. O qeyd edib ki, ultrabənövşəyi şüaların aqressiv təsirindən ilk olaraq baş dərisi əziyyət çəkir. "Papağın olmaması günəş yanığına səbəb ola bilər ki, bu da öz növbəsində güclü saç tökülməsinə şərait yaradır. Buna görə də günəşli günlərdə papaqlar (boş və təbii materiallardan hazırlanmış) taxmaq və saç xətti boyunca günəşdən qoruyucu sürtmək tövsiyə olunur", - Vasilyeva bildirib.

Bundan əlavə, o deyir ki, qulluq şampunlar və SPF qoruyucu kondisionerlərlə tamamlana bilər. "İsti günlərdə saçlar tez nəmini itirir və susuzlaşır. Nəticədə onlar quru, darıxdırıcı və kövrək olurlar. Buna görə yayda ev baxımını keratin, hialuron turşusu və yağlar (kokos, pambıq toxumu, avokado və arqan) olan qidalandırıcı kondisionerlərlə əlavə etmək lazımdır ki, bu da saçda nəm saxlamağa kömək edəcək", - həkim izah edib.

## Gün ərzində 3-4 fincandan çox çay içirsinizsə...



Bir insanın kofeinə dözümsüzlüyü yoxdursa, gün ərzində qəbul edilən üç-dörd fincan çay təhlükəli olmayacaq". Bunu rusiyalı qastroenteroloq Yevgeni Belousov bildirib. Onun sözlərinə görə, bu dozanın aşılması həddindən artıq kofein qəbulu ilə nəticələnə bilər və həmçinin qaraciyər, böyrək və mədə zədələnməsi riskini artırar. "Hər hansı bir xəstəliyiniz varsa, çay dozasını həkiminizlə məsləhətləşməlisiniz. Çayın orta səviyyədə istehlakı sağlamlıq üçün faydalı hesab olunur: onun tərkibində antioksidantlar, polifenollar və flavonoidlər, vitaminlər və minerallar var", - Belousov qeyd edib.

Həkim həmçinin çaya şəkərin əlavə edilməsinin içkini sağlamdan zərərli hala gətirə biləcəyini vurğulayıb. Qeyd edək ki, alimlərin fikrincə yaşıl çay ağız boşluğunun mikrob tərkibinə təsir edərək periodontit riskini azaldır. Bundan əlavə, krampların səbəblərindən biri olduğuna inanılan hormonabənzər maddələr olan prostaqlandinlərin istehsalını boğaraq menstrual ağrıları aradan qaldıra bilər.

## Türkiyəli musiqiçi səmada "İzmir marşı"nı ifa etdi

Türkiyənin Kırşehir bölgəsində musiqi müəllimi işləyən, 38 yaşlı Yavuz Demirci paraplanla uçuş zamanı skripka ilə "İzmir marşı"nı ifa edib. Paraplan pilotu olan 39 yaşlı Ali Öztürk UNESCO-nun "Musiqi şəhəri" olaraq tanıdığı Kırşehirdə fərqli bir görüntü yaratmaq istəyib. Buna görə də musiqi müəllimi olan əmisi oğlu Yavuz Demirci ilə birlikdə uçuş edib. Onlar havaya qalxdıqları zaman səmada Türkiyə bayrağını açıblar. Daha sonra Demirci özü ilə gətirdiyi skripkada "İzmir marşı"nı səsləndirib.

Təxminən 15 ildir musiqi ilə məşğul olduğunu deyən Yavuz Demirci bunun çox fərqli bir təcrübə olduğunu bildirib. "Bu, qətiyyən səhnədə, meşədə, evdə, təbiətdə ifa etməyə bənzəmir", - deyə o qeyd edib. Ali Öztürk beş ildir paraplan paraşütü ilə maraqlandığını bildirib: "Bu, unutmayacağım bir xatirə oldu".

## Rusiyada qadın qəzəbli ayını çubuqla qovdu



Rusiyanın Maqadan vilayətində qadın qarşısında arxa ayaqları üstə dayanan ayını qorxutmaq üçün çubuqdan istifadə edib. Məlumata görə, hadisə Orotukan rayonunun Kolıma kəndində baş verib, ayı meşədən çıxaraq şəxsi evlərin yaxınlığında gəzib, yerli sakin isə yırtıcı ilə qarşılaşıb. Yaşlı qadın onun qarşısında arxa ayaqları üstə duran heyvanı çubuqla qovub. Heyvan bu qadından qorxaraq, geri çəkilib və meşəyə qaçaraq gözdən itib.

## Ətir istifadə edən kişiləri gözləyən təhlükə



Ətir istifadəsinin təhlükəsi üzə çıxıb. Araşdırmalara görə ətir istehsalında istifadə olunan flata maddəsi sperma sayına mənfi təsir edir. Testosteron səviyyəsini azaldan bir nömrəli maddə flatadır. Flata həm odekolonlarda, həm ətirlərdə, eləcə də, yuyucu tozlarda istifadə olunur. Hazırda bu maddənin suya qatılıdığına və yeməklərə də püskürtüldüyünə dair iddialar var. İddialar bunun qəsdən edildiyi yönündədir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 1.500